# Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!


DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

11-13 MAY 2019-cu il

№ 84 (3982)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur


# GÜRCÜSTANDAN BAKI-TİFLİS-QARSLA BAĞLI YENİ ANLAŞMAYA ANLAŞILMAZ REAKSİYA...

■ səh. 8 ■



## Paşinyanın yeni üsulu, doğrulmayan vədlər və işə velosipedlə getməyin hədəfi...

■ səh. 6 ■


96-cı ildönüm - İlham Əliyev və ailəsi mərhum qurucu prezidentin məzarı başında və xatirə aksiyasında... ■ səh. 2 ■

Prezident Azərbaycanın əlavə gəlirlərinin kimlərə xərclənəcəyinə dair söz verdi... ■ səh. 3 ■

Əsirlərin "hamının hamıya" prinsipi ilə dəyişdirilməsi barədə Lavrovun da bəyanatına erməni nazir dolandırıcı cavab verdi ■ səh. 3 ■

Paşinyan Brüsseldə və Vaşinqtonda gözlənilən Qarabağ danışıqlarını iflic edən addımlar atdı... ■ səh. 9 ■

Rusiya Dağlıq Qarabağ probleminin həlli üçün sonu görünməyən iki şərtdən danışdı... ■ səh. 2 ■

Deputatın vurdurduğu popkornçu yeniyetmənin işinə Təhsil Nazirliyinin operativ reaksiyası - prinsipial aydınlaşma... ■ səh. 13 ■

"E-manat" ödəniş aparatlarının marketlərdə quraşdırılmasında qeyri-şəffaflıq ittihamları dolaşır ■ səh. 11 ■

Telekanallarımızda surdo-tərcümə niyə yoxdur... ■ səh. 15 ■




**Hərbi xidmətdən yayınma cinayətlərinin sayına görə Ermənistan harda, Azərbaycan harda...** ■ səh. 5 ■



**Azərbaycana Çindən və Türkiyədən karqo daşımalarında təhlükəli ziddiyyət... Gömrük Komitəsi necə izah verdi...** ■ səh. 10 ■



**ABŞ-ın ən iri təyyarədaşıyanı İran körfəzinə çatdı, Səudiyyə şahzadəsinin İslam ölkəsinə hərbi müdaxilə planı...** ■ səh. 7 ■

■ səh. 4 ■
İndi gəl "Twitter"in erməni əlində olmadığına inan - Qarabağın azərbaycanlı icmasının səsini boğmağın başqa nə adı ola bilər...



■ səh. 6 ■
Qarabağda anti-Ermənistan proseslərini Paşinyan rəsmən təsdiqlədi - kim əksinqilaba qalxsa...



■ səh. 4 ■
Ərdoğanın sabiq silahdaşları partiya yaratsa... Ölkə gündəminin kardinal dəyişə biləcəyi ekspert müzakirələrində...



■ səh. 12 ■
Bölgələrimizdə bank kreditləri Bakı ilə müqayisədə çox bahadır...



■ səh. 11 ■
Bakı "moykaları" - dünyanın qızıl qiymətinə aldığı su amansızlıqla israf edilir...



# 96-cı ildönüm - İlham Əliyev və ailəsi mərhum qurucu prezidentin məzarı başında və xatirə aksiyasında...

**Mayın 10-da müasir müstəqil Azərbaycanın memarı və qurucusu, görkəmli dövlət xadimi, xalqımızın dahi oğlu və ümummilli lideri Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü tamam oldu.**

"Mənim həyat amalım yalnız bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mədəni inkişafına xidmət olub", - deyən Heydər Əliyev istər sovet dönəmində, istərsə də müstəqillik illərində qüdrəti və zəkası, böyük müdrikliyi və uzaqgörənliyi ilə Azərbaycanı dünya məmləkətləri sırasında layiqli yerə çıxarıb. O, keçmiş SSRİ-nin ən nüfuzlu siyasətçilərindən biri idi. Bu səbəbdən də "Azərbaycan sənin üçün kiçikdir, sən ittifaqa lazımsan", - deyə onu Moskvaya dəvət etdilər. Amma burada o, həm də onu gözü götürməyən məkrli qorbaçovların xəyanətinə tuş gəldi, Vətəninə döndü. Bu qayıdış isə daha möhtəşəm oldu. Ümidlə, inamla yolunu gözləyən xalqının arzusu ilə yenidən hakimiyyətə gəldi. Milyonları öz ətrafında, bir bayraq altında birləşdirə bildi. Sözünün qüdrəti ilə hər kəsi inandırdı. Əməlləri ilə sözünü gerçəyə çevirdi.

Mayın 10-da Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Ümummilli Liderin məzarını ziyarət ediblər.

Azərbaycan Respublikasının dövlət himni səslənib.

Sonra dövlət başçısı və ailə üzvləri Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini ehtiramla anaraq məzarı üzərinə gül dəstələri qoyublar.

Görkəmli dövlət xadimi Əziz Əliyevin və tanınmış həkim-alim Tamerlan Əliyevin məzarları üzərinə də gül dəstələri düzülüb.

Həmin gün Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Zığ dairəsi-Heydər Əliyev Beynəlxalq Aeroportu avtomobil yolunun 28-ci kilometrliyində salınan yaşıllıq sahəsində ulu öndər Heydər Əliyevin doğum gününə həsr olunan ağacəkmə kampaniyasında da iştirak ediblər.



Ekologiya və Təbii Sərvətlər naziri Muxtar Babayev "Keçmiş yod-brom zavodunun çirklənmiş ərazilərinin təmizlənməsi" və "Heydər Əliyev Beynəlxalq Aeroportunun yaxınlığındakı çirklənmiş ərazilərin təmizlənməsi" layihələri barədə Prezident İlham Əliyevə məlumat verib.

Prezident və ailə üzvləri ərazidə ağac əkiblər.

**Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibətilə keçirilən ağacəkmə aksiyasında 4 hektar ərazidə ümumilikdə 3250 ağac əkilib.**

## Xələf Xələfov Paşinyanın Azərbaycanın işğal olunmuş torpaqlarına səfərini belə adlandırdı...

**Ermənistanın Baş naziri Nikol Paşinyanın Azərbaycanın işğal olunmuş torpaqlarına səfəri beynəlxalq hüququn pozulmasıdır. "Trend"in məlumatına görə, bunu jurnalistlərə açıqlamasında Xarici işlər nazirinin müavini Xələf Xələfov deyib.**

Onun sözlərinə görə, N.Paşinyanın işğal altında olan ərazilərimizə səfəri danışıqlar prosesi baxımından destruktiv addımdır: "Bu, danışıqlar prosesinin konstruktiv çərçivədə aparılmasına göstərilən təzyiq, həm də münaqişənin həllinə yönəlmiş səylərə ziddir. Belə səfərləri qınayırıq. Azərbaycan ərazisini Ermənistanın işğal etməsi heç kimdə şübhə doğurmur. Amma çox təəssüf, beynəlxalq münasibətlərdə mövcud olan standartlar imkan vermir ki, hər tərəf öz adı ilə çağırılsın. Ermənistan Azərbaycan torpaqlarını işğal etməklə beynəlxalq normaları pozub. Minsk Qrupunun həmsədrləri müəyyən cəhdlər edir ki, tərəfləri bir-birinə yaxınlaşdırsın və danışıqlar prosesi aparılsın. Belə bir fonda Paşinyanın səfəri ağlabatan deyil".

## Keşikçidağla bağlı təxribat xarakterli bəyanatlar verilir

**Azərbaycan-Gürcüstan sərhədində yerləşən Keşikçidağla bağlı təxribat xarakterli bəyanatlar verilir. "Trend"-in məlumatına görə, bunu jurnalistlərə açıqlamasında Xarici işlər nazirinin müavini Xələf Xələfov deyib.**

Onun sözlərinə görə, sərhəd məsələləri dövlətlərarası danışıqlar çərçivəsində həll edilməlidir: "Gürcüstanla dövlət sərhədinin delimitasiyası ilə 1996-cı ildən məşğul oluruq. Bu dövr ərzində daim danışıqlar aparılıb. Gürcüstanla sərhədin üçdə iki hissəsi delimitasiya edilib, üçdə bir hissəsində isə hələlik delimitasiya prosesi başa çatmayıb. Bu böyük iş tələb edir. Danışıqlar davam etdirilir". X.Xələfov qeyd edib ki, belə məsələlər kiminsə tarixi, yaxud dini fikir söyləməsindən asılı deyil: "Məsələ ancaq hüquqi müstəvidə çözülə bilər. Azərbaycan və Gürcüstan 100 ildən artıqdır bu sərhədlər çərçivəsində yaşayırlar. Təbii ki, bu sərhədlərin mövcudluğu barədə müvafiq hüquqi sənədlər var. Ona görə də mən bir daha bildirirəm ki, belə məsələlər hüquqi müstəvidə, danışıqlar yolu ilə həll ediləcək. Bundan əlavə, tarixən Gürcüstan və Azərbaycan xalqları arasında qarşılıqlı dostluq, qonşuluq münasibətləri mövcuddur. Azərbaycan və Gürcüstan dövlətlərini strateji partnyorluq münasibətləri birləşdirir. Hər iki dövlətin iştirakı ilə beynəlxalq strateji əhəmiyyət kəsb edən işlər görülüb. Biz bu gün də bu layihələrin üzərində işləyirik". Nazir müavini deyib ki, səslənən müxtəlif bəyanatlar hər iki dövlətin maraqlarına ziddir: "Belə söhbətlər məsələnin həllinə xidmət edə bilməz. Azərbaycan və Gürcüstan arasında olan dövlətlərarası münasibətlərin potensialı imkan verir ki, biz bu məsələni hüquqi müstəvidə həll edək".

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun Sabirabad rayon şöbəsinin müdiri Bayram Mikayilov və şöbənin kollektivi 16 il idarənin rəhbəri olmuş Əliqəmə Əlibala oğlu Quliyevin ölümü ilə əlaqədar kədərləndiklərini bildirir, mərhumun ailə üzvlərinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.**
**Allah rəhmət eləsin**

# Rusiya Dağlıq Qarabağ probleminin həlli üçün sonu görünməyən iki şərtdən danışdı...

**"Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesi mürəkkəb prosesdir. Nizamlanmanın əsas aspektlərini razılaşdırmaq üçün vaxt və tərəflərin siyasi iradəsi tələb olunur".**

"Sputnik Azərbaycan" xəbər verir ki, bu barədə Rusiya Xarici İşlər Nazirliyinin İnformasiya və mətbuat idarəsinin Azərbaycanla Ermənistan arasında atəşkəs razılaşmasının imzalanmasının 25-ci ildönümü ilə əlaqədar yaydığı açıqlamasında bildirilib.

## Vaxt və siyasi iradə...



Açıqlamada qeyd olunur ki, Rusiya tərəfi kompromis axtarışı ilə bağlı Bakı və İrəvana fəal yardım etməyə səy göstərəcək.

"Bu yaxınlarda Azərbaycan və Ermənistan liderlərinin Vyanadakı, xarici işlər nazirlərinin isə Moskvadakı görüşlərinin nəticələri bunu təsdiqləyir. ATƏT-in Minsk Qrupu həmsədrliyi çərçivəsində ABŞ və Fransa ilə vasitəçiliyimizi əvvəlki kimi gücləndirəcəyik" - deyə Rusiya XİN-nin açıqlamasında vurğulanıb.

Xatırladaq ki, Azərbaycanla Ermənistan arasında atəşkəs sazişi 1994-cü il mayın 12-də imzalanıb.

# Mətbuat Şurası Dövlət Təhlükəsizliyi Xidmətinə Elmar Hüseynovun qətl işi ilə bağlı müraciət etdi...

**Azərbaycan Mətbuat Şurası jurnalist Elmar Hüseynovun qətli ilə bağlı məsələnin araşdırılması, günahkarların tapılaraq cinayət məsuliyyətinə cəlb edilməsi işinin sürətləndirilməsi ilə bağlı Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinə müraciət ünvanlayıb.**

Müraciətdə bildirilir ki, Şura 3 may Ümumdünya Mətbuat Azadlığı Gününə həsr olunmuş "Mətbuat azadlığı: bəşəri mahiyyət və Azərbaycan reallıqları" mövzusunda konfrans keçirib. Ölkənin tanınan, ictimai fikrə təsir göstərən kütləvi informasiya vasitələrinin rəhbərlərinin, media ekspertlərinin və jurnalist birliklərinin təmsilçilərinin qatıldığı toplantının iştirakçıları bu qərara gəliblər ki, "Monitor" jurnalının baş redaktoru Elmar Hüseynovun 2005-ci il martın 2-də törədilmiş qətlinin araşdırılması sürətləndirilməli və cinayəti törədən(lər) tezliklə tapılmalı, layiqli cəzalarını almalıdır.

Müraciətdə Elmar Hüseynovun 2005-ci il martın 2-də törədilmiş qətli ilə bağlı cəzasızlığın davam etməsinin narahatlıq doğurduğu vurğulanıb. Bildirilib ki, jurnalist qətli hər bir ölkənin beynəlxalq imicinə mənfi təsir göstərən hadisədir: "Bu mənada, müəyyən siyasi qüvvələrin günahkar(lar)ın hələ də tapılıb cinayət məsuliyyətinə cəlb edilməmələri səbəbilə manipulyasiyalara yol verməlari də narahatlıq doğurmaqdadır".

DTX rəisi, general-polkovnik Mədət Quliyevə ünvanlanmış müraciətdə, həmçinin, ölkə jurnalistikası üçün böyük önəm daşıyan məsələyə həssas yanaşılacağına inam ifadə olunub.

# Prezident Azərbaycanın əlavə gəlirlərinin kimlərə xərclənəcəyinə dair söz verdi...

**"Çalışırıq bütün əlavə gəlirlərimizi sosial sahəyə yönəldək ki, vətəndaşların rifah halı daha da yaxşılaşsın, işsizliklə bağlı problemlər daha da yüksək səviyyədə həll olunsun və ölkəmizin dinamik inkişafı təmin edilsin".**

*"Aparılan islahatlar, yaradılan şəffaflıq gəlirləri artırıb"*

***Rəsul Cahangirli:** "Bu, dövlət başçısının sosial sahəyə nə qədər böyük diqqət göstərdiyini bir daha ortaya qoydu"*



Bunu Prezident İlham Əliyev Bakının Yasamal rayonunda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyinin və ilk DOST mərkəzinin inzibati binasının açılış mərasimində DOST Agentliyinin bir qrup işçisi və "Gənc DOST" könüllüləri ilə görüşü zamanı deyib.

Ölkə başçısının sözlərinə görə, sosial sahə hər bir ölkə üçün böyük önəm daşıyır: "Azərbaycanda da bu sahəyə böyük diqqət göstərilir. Bizim siyasətimiz sosialyönümlü siyasətdir. Çalışırıq bütün əlavə gəlirlərimizi sosial sahəyə yönəldək ki, vətəndaşların rifah halı daha da yaxşılaşsın, işsizliklə bağlı problemlər daha da yüksək səviyyədə həll olunsun və ölkəminin dinamik inkişafı təmin edilsin. Əlbəttə buna nail olmaq üçün, ilk növbədə, iqtisadi inkişaf olmalıdır və biz bu məsələ ilə bağlı ciddi məşğuluq. Qeyri-neft sektorunun, sahibkarlığın inkişafı bir-birilə bağlı olan məsələlərdir. Hesab edirəm ki, Azərbaycanda bu istiqamətdə işlər uğurla gedir. İqtisadiyyatımız çoxşaxəli iqtisadiyyata çevrilir. Bildiyiniz kimi, özəl sektor ümumdaxili məhsulumuzda təqribən 80 faiz təşkil edir. Beləliklə, iqtisadi artım, iqtisadi sahədə aparılan islahatlar, büdcə daxilolmalarının artımı, əlbəttə ki, sosial sahəyə böyük diqqət göstərmək üçün imkan yaradır".

Bütün bunlar sosial sahəyə göstərilən diqqətin nəticəsidir. Maraqlıdır, bəs ekspertlər bunu necə dəyərləndirirlər?

**Məsələyə münasibət bildirən ekspert Rəsul Cahangirlinin sözlərinə görə, bu, dövlət başçısının sosial sahəyə nə qədər böyük diqqət göstərdiyini bir daha ortaya qoydu:** "Aparılan islahatlar, yaradılan şəffaflıq gəlirləri artırıb. Ona görə də sosial sahəyə böyük məbləğdə maliyyə vəsaiti yönəltmək mümkün olub. Bəllidir ki, ilin əvvəlindən böyükhəcmli sosial paket həyata keçirilməsinə qərar verilib. Bu isə külli məbləğdə vəsait hesabına başa gəlir. Sosial sahə, başqa sözlə desəm, əhalinin maddi rifahının fasiləsiz olaraq yaxşılaşdırılması da sağlam maliyyələşdirmə tələb edən məsələdir. Azərbaycanda görülən işlər sayəsində buna nail olmaq mümkün olub. Bu ilin dörd ayında vergi və gömrük orqanları təqribən 400 milyon manata yaxın əlavə vəsait toplayıblar. Bu kifayət qədər böyük məbləğdir. Bütün bu maliyyə resursu imkan verir ki, sosial sahəyə daha çox vəsait ayrılsın.

O baxımdan hesab edirəm ki, aztəminatlı insanların bundan sonra sosial durumu daha da yaxşılaşacaq".

***Vidadi ORDAHALLI***

# Əsirlərin "hamının hamıya" prinsipi ilə dəyişdirilməsi barədə Lavrovun da bəyanatına erməni nazir dolandırıcı cavab verdi

**Ermənistanın müdafiə naziri David Tonoyan son açıqlamasında bildirib ki, Azərbaycanla əsirlərin dəyişdirilməsinə dair danışıqlar davam edir. Jurnalistlər David Tonoyandan Rusiya xarici işlər naziri Sergey Lavrovun münaqişə tərəflərini əsir və girovları "hamının hamıya" prinsipi ilə dəyişdirməyə çağıran bəyanatı haqda soruşublar.**

***Əhməd Şahidov:** "İnanıram ki, yaxın vaxtlarda proses bizim istədiyimiz formada baş tutacaq"*



Tonoyan Azərbaycanla danışıqların getdiyini deyərək bu məsələ ilə bağlı konkretləşdirmə işlərinin getdiyini deyib: "Hələlik konkret vəzifə yoxdur, amma danışıqlar gedir. Bildiyiniz kimi mən müvafiq komissiyanın sədriyəm. Hazırda danışıqlar gedir ki, biz kimi kimlə dəyişdirmək məsələsini anlayaq". Jurnalistlər nazirdən soruşublar: hamını hamıya dəyişdirmək olarmı? Tonoyan isə deyib: "Hazırda mən bu haqda danışa bilmərəm".

Qeyd edək ki, Tonoyan həm də hər iki tərəfdə olan girovların sayı ilə də bağlı bir qədər müəmmalı danışıb. O, Ermənistanda olan girovlarla qondarma qurumdan olan girovları fərqli şəkildə təqdim etməyə çalışıb. Həmçinin, Azərbaycanda saxlanan əsirlərin də fərqli "ölkəni" təmsil etdikləri rəyini formalaşdırmağa uğursuz cəhd edib. Xatırladaq ki, erməni tərəfi Dağlıq Qarabağda girov saxlanan Şahbaz Quliyev və Dilqəm Əsgərovu əsir və girovların dəyişdirilməsinə dair danışıqlardan kənarda saxlamağa çalışır. Dağlıq Qarabağın separatçı rəhbərliyi bildirir ki, onların azad edilməsindən söhbət gedə bilməz. Azərbaycan tərəfi isə neçə vaxtdır əsir və girovların "hamının hamıya" prinsipi ilə dəyişdirilməsini təklif edib. Qeyd edək ki, tərəflər arasında aparılan Vyana və Moskva görüşlərinin tələblərində də humanitar tədbirlərin görülməsi kimi girovlarla bağlı məsələ xüsusilə qoyulur. Həmçinin, bu yaxınlarda Rusiya XİN rəhbəri Lavrov da girovların Azərbaycanın dediyi şərtə uyğun dəyişdirilməsinin zəruriliyini ortaya qoydu. Ancaq hiss edilir ki, Tonoyan yenidən bu mövzudan yayınmaq yolunu tutur. Erməni nazirin bu cəhdini necə dəyərləndirmək olar?

**Azərbaycanlı Əsir və Girovlarla Bağlı Məlumat Mərkəzinin koordinatoru, hüquq müdafiəçisi Əhməd Şahidov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, əslində, Tonoyanın bu açıqlaması heç də onun Vyana və Moskva görüşündə əldə olunan nəticələrdən imtinası kimi dəyərləndirilə bilməz:** "Mən burada bir qədər tərəddüd görürəm. Çünki bilirsiniz ki, Ermənistan cəmiyyəti hazırda ikiyə bölünmüş vəziyyətdədir. Oradakı gərginliyi nəzərə alan rəsmilər bəyanatlarında bir qədər pərdəli danışırlar. Əksinə, mən hesab edirəm ki, Lavrovun açıqlamasından sonra onlar prosesə hazırlıq görən təsirini bağışlayırlar. Son bir ay müddətində biz Ermənistanın mövqeyində bir qədər yenilik hiss edirik. Bu da onu deməyə əsas verir ki, Vyana və Moskva görüşlərinin, eləcə də Lavrovun bəyanatının Ermənistanın mövqeyinə təsiri olub. Lavrovun açıqlamasından hələ 10 gün keçib. Bu qısa müddətdir. Hesab edirəm ki, bu qədər ümidsiz olmağa dəyməz. Biz prosesin içində olan şəxslər kimi məsələdə heç də ümidsiz deyilik. Əksinə, hesab edirik ki, bu məsələdə Azərbaycanın iradəsi qalib gəlib. İnanıram ki, yaxın vaxtlarda proses bizim istədiyimiz formada baş tutacaq. Bilirsiniz niyə bir qədər uzun çəkir? Çünki qarşı tərəf də öz cəmiyyətini psixoloji cəhətdən hazırlamalıdır. Onlarda bu istiqamətdə vəziyyət daha həssasdır. Növbəti mərhələdə Ermənistan əsir və girovların "hamının-hamıya" prinsipi ilə dəyişdirilməsinə razı olacaq. Ötən il onlar bu mövzuda danışmağa belə həvəsli deyildilər. Düşünürəm ki, yay aylarında Azərbaycanın təklifi üzrə əsir və girovların dəyişdirilməsi baş tutacaq. Çünki həmin əsir və girovların doğmaları Ermənistan rəhbərliyi qarşısında ciddi tələb qoyurlar. Ermənistanın bu addımı atmaqdan başqa çarəsi qalmayıb".

***Məhəmmədəli QƏRİBLİ***

# İndi gəl "Twitter"in erməni əlində olmadığına inan - Qarabağın azərbaycanlı icmasının səsini boğmağın başqa nə adı ola bilər...

**Əli Orucov:** *"Bu gün dünyanın hər bir yerində yaşayan azərbaycanlılar qurumun rəsmi "Twitter" səhifəsinin açılmasına nail olmaq üçün addımlar atmalıdırlar"*

**Məlum olduğu kimi "Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyinin rəsmi "Twitter" hesabı ermənilərin kütləvi şikayəti əsasında bağlanıb. Qurumdan bu barədə mətbuata daxil olan məlumatda bildirilir ki, "Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyinin rəsmi "Twitter" hesabı "Twitter" administrasiyası tərəfindən bağlanıb.**




*"Ermənilər qurumun aktiv fəaliyyətindən qıcıqlandıqları üçün "Azərbaycan Respublikasının Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması"nın rəsmi "Twitter" səhifəsinin bağlanmasına çalışıblar"*

"Bununla bağlı tərəfimizdən "Twitter"ə rəsmi müraciət edilsə də, bu haqda icmaya hər hansı izahat verilməyib. Dünyanın tanınmış sosial şəbəkəsi tərəfindən icmanın rəsmi "Twitter" hesabının bloklanması ermənilərin Dağlıq Qarabağ azərbaycanlılarının haqq səsinə olan dözümsüzlüyünü göstərməklə yanaşı, "Twitter"in azad sözə və paylaşıma olan "münasibətinin" təzahürüdür.

"Twitter" əgər ermənilərin şikayətini qəbul edərək, 1 milyondan çox soydaşımızın pozulmuş təbii hüquq və azadlıqlarını, o cümlədən, öz torpaqlarına geri dönmək və mülkiyyət hüquqlarını həyata keçirə bilməməsini görməzlikdən gəlirsə, müasir dünyada ikili standartların özünü bu şəkildə açıq büruzə verməsi yalnız təəssüf hissi doğurur.

Yaxşı olardı ki, "Twitter" administrasiyası icmamızın rəsmi səhifəsini bağlamaq əvəzinə, Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı və erməni icmalarının ölkəmizin beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində sülh şəraitində birgə yaşayışının yenidən bərpa edilməsinə çağırışlar edərdi" - deyə qurumun rəsmi bəyanatında bildirilir.

Qurumdan, həmçinin, bildirilib ki, icma sosial şəbəkə istifadəçiləri olan soydaşlarımıza müraciət edərək fəal şəkildə icmanın @AzeCommunityNK hesabını dəstəkləməyə və icmanın rəsmi hesabının bərpa edilməsindən ötrü həmrəylik nümayiş etdirməyə, "Twitter" administrasiyasına çoxsaylı müraciətlər ünvanlamağa çağırır: "Hesab edirik ki, Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin incisi olan Şuşanın işğal günündə bütün azərbaycanlılar erməni yalanlarına qarşı çıxış edərək birlikdə haqq səsimizi ucaltmaqdan çəkinməməliyik".

**AMİP təmsilçisi, politoloq Əli Orucov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bütün azərbaycanlılar harada yaşamasından asılı olmayaraq, hər kəs özünü Dağlıq Qarabağın azərbaycanlı icmasının bir üzvü hesab etməlidir və ermənilərin həyata keçirdikləri təxribatın aradan qaldırılmasına çalışmalıdır.** Ermənilərin bizə qarşı düşmənçilik mövqelərini davam etdirdiyini deyən Ə.Orucovun sözlərinə görə, onlar bir toplum olaraq azərbaycanlılarla birgə yaşayışı istəmirlər. Son dövrlər "Azərbaycan Respublikasının Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması"nın aktiv fəaliyyətinin, bu istiqamətdə bir sıra uğurlu addımlar atdığının şahidi olduğumuzu deyən Ə.Orucovun sözlərinə görə, bu da erməniləri ciddi narahat edir və onlar Azərbaycanın beynəlxalq ictimaiyyətə açılmasını istəmirlər. "Onlar istəmirlər ki, Azərbaycan beynəlxalq ictimaiyyətə açılsın və onların bütün çirkin niyyətlərini daha geniş şəkildə ifşa etsin. Ona görə də bizə qarşı təxribat törədirlər. "Azərbaycan Respublikasının Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması"nın "Twitter" səhifəsinin ermənilərin şikayəti əsasında qapadılmasını birmənalı olaraq pisləyirik. Əvvəllər "Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması"nın çox passiv mövqe tutduğunu görürdük. Hətta bu qurum tərəfindən hadisələrin düzgün qiymətləndirilməməsinin şahidi olurduq. Ancaq icmanın yeni rəhbərliyinin fəaliyyəti nəticəsində bu passivlik aradan qaldırıldı. İndi bu qurum aktiv fəaliyyət göstərir. Şübhəsiz ki, bu da erməniləri narahat edir. "Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" Qarabağ həqiqətlərini beynəlxalq ictimaiyyətə çatdırmaq üçün müxtəlif səylər göstərir. Ermənilər qurumun aktiv fəaliyyətindən qıcıqlandıqları üçün onun rəsmi "Twitter" səhifəsinin bağlanmasına çalışıblar. Biz bunu qəbul etmirik və pisləyirik. Hesab edirəm ki, bu gün dünyanın hər bir yerində yaşayan azərbaycanlılar özlərini "Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması"nın bir üzvü saymalı və öz aktiv fəaliyyətləri ilə qurumun rəsmi "Twitter" səhifəsinin açılmasına nail olmaq üçün addımlar atmalıdırlar. Bu məsələdə hər birimizin səyi olmalıdır. Ermənilərin təxribatçı hərəkətlərinin qarşısını almaq üçün hərəkətə keçməliyik. Biz o addımları hansı yollarla atmağı düşünməliyik. Düzdür, son illər Azərbaycan təbliğat müharibəsində xeyli irəliləyiş əldə edib. Burada da xüsusilə Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın və Leyla Əliyevanın əməyini qiymətləndirmək lazımdır. Amma bu kifayət etmir. Biz gücümüzü daha çox bu istiqamətdə səfərbər etməliyik ki, istəyimizə nail ola bilək" - deyə Ə.Orucov qeyd etdi.

***İradə SARIYEVA***

# Ərdoğanın sabiq silahdaşları partiya yaratsa... Ölkə gündəminin kardinal dəyişə biləcəyi ekspert müzakirələrində...

**Qabil Hüseynli:** *"Görünən budur ki, onların əsas hədəfləri Ərdoğan olacaq"*

**Türkiyədəki son bələdiyyə seçkiləri həmin ölkəni, demək olar ki, silkələyib. Seçkinin nəticələrininn ləğvi hətta bir vaxtlar Ərdoğanla eyni iqtidarda təmsil olunan yüksək ranqlı sabiq məmurları da hərəkətə gətirib. Artıq Ərdoğanın sabiq silahdaşlarının yeni partiya təsis edəcəyi ilə bağlı fikirlər dolaşır.**

*"Yeni partiya qurulsa, hazırda AKP-ni parlamentdə təmsil edən 40-a yaxın millət vəkilinin onlar tərəfə keçəcəyi gözlənir"*

Hətta bildirilir ki, bu amal Abdullah Gül ilə Əhməd Davudoğlu arasında bir müddətdir davam edən soyuqluğu aradan qaldıra bilib.

Türkiyə KİV-ində Abdullah Gül ilə Əhməd Davudoğlunun vahid partiya yaradacağı bildirilir. Məlumata görə, sabiq iqtisadiyyat naziri Əli Babacan yeni yaradılacaq partiyanın sədri olmaq istəmir, amma yeni partiyada vəzifə alacağını təsdiqləyir.

Ə.Davudoğlunun A.Gülə "əgər yeni partiyanın sədri olmaq istəyirsinizsə, bizə də sizin rəhbərliyiniz altında işləmək yaraşar" - dediyi vurğulanır. A.Gül isə partiya sədri olmaq istəmədiyini açıq şəkildə söyləyib. Ən geci 1 ay sonra partiyanın rəsmiləşdirilməsi gözlənir.

Qeyd edək ki, daha əvvəl Türkiyə KİV-ində Ə.Davudoğlunun rəhbərliyi ilə yeni partiya yaradılacağı bildirilirdi.

Xatırladaq ki, Ə.Davudoğlu 2014-cü ilin avqustundan 2016-cı ilin mayına qədər Türkiyənin baş naziri olub. 2014-cü ilin avqustundan 2016-cı ilin mayına qədər o, həmçinin, Ədalət və İnkişaf Partiyasına rəhbərlik edib.

Ərdoğanın sabiq silahdaşlarının yarada biləcəyi partiya Türkiyənin yaxın gələcəyi üçün nə vəd edir?

**Politoloq Qabil Hüseynli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, sözügedən adamlar çox ciddi təsir imkanlarına malikdirlər:** "Partiya ilk yarananda Ərdoğan 6 aylığına həbsə məhkum edilmişdi. Həmin vaxt bu adamlar A.Gülün başçılığı ilə həmin partiyanı qurdular. Güllə yanaşı, Ə.Babacan, Davudoğlu da partiyanın ilkin rüşeymini qoyanların sırasındadırlar. Hesab edirəm ki, ən ağır "top"lardan biri də Bülənt Arıncdır. O nə Ərdoğana qoşulur, nə də bunlara. Amma yeni yaranacaq partiyaya gəlmə ehtimalı böyükdür. Deyilənə görə, artıq bu adamlar partiya quruculuğu işlərini tam başa çatdırıblar. Lazım olan bütün quruculuq işlərini yerinə yetiriblər. Bizim hələ adını çəkmədiyimiz digər məhşur adamlar da bu komandada var. Hesab edirəm ki, partiyanın sədri Davudoğlu olacaq. Hələlik partiyanın adı ilə bağlı hər hansı bir məlumat verilmir. Görünən budur ki, onların əsas hədəfləri Ərdoğan olacaq. Onlar hesab edirlər ki, Ərdoğan ölkəni iflasa doğru aparır. Buna görə də yeni partiyanın müxalif platformada qərar tutacağı gözlənir. Bir proqnoz da bundan ibarətdir ki, yeni partiya qurulsa, hazırda AKP-ni parlamentdə təmsil edən 40-a yaxın millət vəkilinin onlar tərəfə keçəcəyi gözlənir.



Belə olan təqdirdə, AKP-nin parlamentdəki dayaqları da ciddi zəifləyəcək. Yaxın 15 gündə yeni partiya elan edilə bilər. Bundan sonra Türkiyənin siyasi həyatında ciddi dəyişikliklər başlayacaq. Yeni partiyanın yaranması Ərdoğan üçün ciddi problemlər yaşada biləcək və onun hakimiyyətinin sonunu yaxınlaşdıracaq".

***Məhəmmədəli QƏRİBLİ***

# Hərbi xidmətdən yayınma cinayətlərinin sayına görə Ermənistan harda, Azərbaycan harda...

**Günü-gündən güclənən Azərbaycan Ordusunda vaxtilə mövcud olan bir sıra neqativ hallar artıq keçmişdə qalıb. Bu gün ordumuz öz vətənpərvər əsgər və zabitləri ilə dövlətçiliyimizin keçiyində dayanır. Hazırda, demək olar ki, ordumuzda fərarilik kimi xoşagəlməz hallara rast gəlinmir.**

Respublikanın hərbi prokuroru Xanlar Vəliyev bildirib ki, orduda baş verən, o cümlədən, hərbi xidmət əleyhinə cinayətlərin sayı Hərbi Prokurorluğun səmərəli fəaliyyəti nəticəsində əhəmiyyətli dərəcədə azalıb. O, həmçinin, vurğulayıb ki, ötən il Hərbi Prokurorluq üzrə qeydə alınmış müxtəlif qəbildən olan cinayətlərin digər illərlə müqayisəli təhlili göstərir ki, hərbi xidmət əleyhinə olan cinayətlər 1998-ci illə müqayisədə 7 dəfə, hərbi xidmətdən yayınma cinayətləri 33 dəfə, hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə cinayətləri 29 dəfə, fərarilik cinayətləri 371 dəfə, müharibə vaxtı və ya döyüş şəraitində hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə cinayətləri 1000 dəfə azalıb: "Tabelik qaydaları əleyhinə olan, eləcə də hərbi qulluqçunu təhqir etmə, döymə və ya işgəncə vermə cinayətləri 2007-ci illə müqayisədə iki dəfə az qeydə alınıb. Həmçinin, tabelik münasibətlərində olmayan hərbi qulluqçular arasında qarşılıqlı münasibətlərin nizamnamə qaydalarını pozma cinayətləri 2013-cü illə müqayisədə 41,7 faiz az olub. Eləcə də 1998-ci illə müqayisədə hakimiyyətdən sui-istifadə etmə cinayətləri 36 faiz, qulluğa səhlənkar yanaşma cinayətləri 51,4 faiz, qeyri-hərbi cinayətlər 10,2 faiz, qəsdən adam öldürmə cinayətləri 5 dəfə, özünü öldürmə həddinə çatdırma cinayətləri isə 2 dəfə azalıb".

Azərbaycanda hərbi xidmətdən yayınma cinayətlərinin 33 faiz azalması nəyin hesabına baş verib?

**Azərbaycan Ordusunun sabiq korpus komandiri, iki dəfə "Azərbaycan Bayrağı" ordeninə layiq görülmüş Şair Ramaldanov "Bakı-Xəbər"ə bildirdi ki, ordumuzda mütəmadi olaraq həyata keçirilən islahatlar, hərbçilərin sosial və məişət vəziyyətinin yaxşılaşdırılması, xidmətin tam şəkildə nizamnamələrə uyğun şəkildə aparılması, komandirlərlə tabeliyində olan şəxsi heyət arasında düzgün münasibətlərin qurulması və s. amillər fərariliyin, ümumiyyətlə, hərbi cinayətlərin azalmasına səbəb olub.** "Bundan başqa, bilirsiniz ki, aprel hadisələrindən sonra bizim gənclərin daxilində böyük bir ruh yüksəkliyi, potensialı sıçrayış verdi. Bizim gənclərin aprel hadisələrindən sonra qulluq etdikləri hərbi hissələrə münasibəti daha yüksək səviyyədə formalaşdı. Bu və digər hallar da, əlbəttə, hərbi cinayətlərin və fərariliyin faizinin azalmasına səbəb oldu. Ümumiyyətlə, orduda fərarilik və digər cinayətləri yaradan səbəb ilk növbədə ordunun nizamnamə ilə deyil, digər qanunlarla idarə olunduğu hallar olur. Bizdə isə ordu sırf nizamnamə əsasında qurulub, burada kənar təsirlər yoxdur. Bu gün Azərbaycan əsgəri hansı postda olmasından asılı olmayaraq, onun məişət təminatı tam şəkildə qurulubsa, bu həmin gəncin hərbi xidməti uğurla davam etdirməsinə müsbət təsir göstərir. Müasir Azərbaycan Ordusunda xidmət edən əsgərlər öz xidməti vəzifələrini yüksək səviyyədə həyata keçirirlər. Çünki onların bütün qayğıları, sosial problemlərinin həlli dövlətin diqqət mərkəzindədir. Sosial-məişət qayğılarından uzaq olan, tək fikri Vətəni, torpağı qorumaq olan Azərbaycan əsgərləri irəliyə baxır, torpaqlarımızı azad edəcəkləri günü gözləyirlər".

## *Şair Ramaldanov: "Bu gün Azərbaycan Ordusunda əsgərlərin cinayət törətməsi, fərarilik etməsi üçün heç bir səbəb, mühit yoxdur"*



## *"Azərbaycanda vətənpərvərlik ruhunda böyüyən gələcək əsgərlə Ermənistanda böyüyən cəsarətsiz uşaq arasında fərq böyükdür"*

Azərbaycan Ordusu ilə müqayisədə Ermənistanda hərbi cinayətlərin və fərarilik hallarının yüksələn xətt üzrə getdiyini deyən Ş.Ramaldanovun sözlərinə görə, bu gün bu ölkənin ordusunda istənilən növ cinayət halları geniş yayılıb: "Ermənistanın özünün təqdim etdiyi statistikaya görə, bu gün onların hərbi hissələrində ölüm halları döyüş itkilərini iki dəfə üstələyib. Bunlar özünəqəsdir, yaxud əsgər yoldaşı tərəfindən öldürülmədir və s. Ermənistan ordusunda nizamintizamsızlıq hökm sürür. Bilirik ki, bu, birinci növbədə, Ermənistanın hərbi hissələrində xidmət edənlərin sosial-məişət vəziyyətinin acınacaqlı olmasıdır. Digər tərəfdən də bu gün işğal olunmuş Dağlıq Qarabağda Ermənistandan olan əsgər və digər hərbi qulluqçularla separatçı rejimin əsgərləri arasında ziddiyyətlər də mövcuddur. Onların münasibətləri çox gərgindir. Başqa bir tərəfdən, bir respublikanın birinci şəxsi orduda yemək probleminin olduğunu açıq şəkildə etiraf edirsə, yemək probleminin həllinə hələ zaman tələb olunduğunu deyirsə, bu onların vəziyyətini göstərir. Azərbaycanın gələcək əsgəri ilə Ermənistanın gələcək əsgəri arasında böyük fərq var. Bu ondan ibarətdir ki, Azərbaycanın gələcək əsgəri məktəb yaşından başlayaraq böyüyənə qədər Qarabağı azad etmək arzusu ilə yaşayır və o ruhda tərbiyə alır, ona ailədə Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğal edildiyi təlqin edilir. Bu o deməkdir ki, bizim gələcək əsgərlər torpaqlarımızın işğaldan azad olunması haqqında düşünürlər. Bu gün kiçik bir oğlan uşağından soruşanda ki, böyüyəndə kim olacaqsan, deyir ki, böyüyüb əsgər olacağam və Qarabağı işğaldan azad edəcəyəm. Yəni Azərbaycanda vətənpərvərlik ruhunda böyüyən gələcək əsgərlə Ermənistanda böyüyən cəsarətsiz uşaq arasında fərq böyükdür. Çünki Ermənistanda valideynlər çalışırlar ki, uşaqlarını ölkədən çıxarsınlar. Təşviş içində olan erməni valideynlər qorxurlar ki, uşaqları böyüyəndə onları Ermənistanın işğal etdiyi Azərbaycan torpaqlarında hərbi xidmətə aparacaqlar. Müasir Ermənistan uşaqları və gəncləri bu qorxu ilə yaşayırlar. Erməni gəncləri Azərbaycanın işğal altında olan ərazilərində hərbi xidmət keçməkdən qorxurlar, ona görə ki, onlar burada bir çox problemlərlə üzləşirlər. Orada mövcud olan şərait o gənclərin vəziyyətini psixoloji cəhətdən daha da ağırlaşdırır. Böyük psixoloji gücə, sosial-iqtisadi, mənəvi potensiala, təminata malik olan Azərbaycan əsgəri təbii ki, fərarilik haqqında düşünməyi belə ağlına gətirmir. Ancaq hər gün psixoloji, mənəvi-sosial problemlər içində yaşayan Ermənistan əsgəri hər an cinayət törədir, intihara əl atır, yaxud da bir-birini güllələyir. Bunun nəticəsində də Ermənistan ordusunda cinayət halları artır. Bu gün Azərbaycan Ordusunda əsgərlərin cinayət törətməsi, fərarilik etməsi üçün heç bir səbəb, mühit yoxdur. Çünki Azərbaycan əsgərinin gözləri yalnız irəliyə dikilib. Fikir verin, hərbi xidmətə çağırılanlardan istənilən birini dindirsəniz, deyəcəklər ki, Qarabağın işğaldan azad edilməsi bizim əsgərlik xidməti dövrümüzə düşsün, biz öz torpaqlarımızın işğaldan azad olunmasında iştirak etmək istəyirik. Əsgərlərimizin hamısı "mən Ali Baş Komandanın əmrini gözləyirəm" deyir. Bizim əsgərlər bu mühitdə xidmət edirlər. Erməni əsgərləri isə irəliyə yox, ancaq arxaya baxırlar ki, nə zaman onların canları orduda xidmətdən qurtaracaq və evlərinə qayıdacaqlar. Bu gün Ermənistan cəmiyyəti də hökumətdən onu tələb edir ki, qoy bizim övladlarımız öz respublikamızda xidmət etsin, öz dövlətimizi qorusun, onlar başqasının torpaqlarında xidmət etməsinlər".

Azərbaycan Ordusunda vətənpərvərlik hisslərinin yüksək səviyyədə olması, eləcə də əsgərlərin sosial-məişət qayğılarının olmaması kimi amillərin bizim orduda fərarilik kimi hərbi cinayətlərin azalmasına səbəb olduğunu deyən Ş.Ramaldanov hesab edir ki, Azərbaycan Ordusu öz gücü, potensialı ilə Ermənistan ordusundan dəfələrlə yüksəkdir.

***İradə SARIYEVA***

# Paşinyanın yeni üsulu, doğrulmayan vədlər və işə velosipedlə getməyin hədəfi...

**Ermənistanın Baş naziri Nikol Paşinyan işə velosipedlə gedib. Erməni mətbuatının yaydığı məlumata görə, bu barədə Ermənistan hökumətinin "Facebook" səhifəsində məlumat verilib. Paşinyan özü isə səhifəsində əlavə sübut kimi artıq video yükləyib.**



*"Ancaq bu, bütün mənalarda, uğursuzdur"*

"Keçən dəfə inqilabi bir velosiped idi, bu dəfə isə əksinqilabçıdır" - deyə Baş nazir zarafatla yazıb. Kadrlardan göründüyü kimi, Paşinyanı onun mətbuat katibi Vladimir Karapetyan müşayiət edir.

Sosial şəbəkə istifadəçiləri isə Paşinyanın işə velosipedlə getməsinə müxtəlif şərhlər yazıblar: "Doğru variantdır, benzin 480 dram artırılıb", "Yazıq mühafizəçilər, çətinlik çəkən onlardır".

Bu arada erməni mətbuatı Paşinyanın nüfuzunun düşdüyünü yazıb. Bunu ölkədə Milli Təhlükəsizlik Xidmətinin keçirdiyi sorğu da təsdiqləyib. Bundan çıxış edərək Paşinyanın velosipedlə işə getməsini onun növbəti piar addımı kimi qəbul edənlər də var.

Onu da qeyd edək ki, Paşinyan ilk dəfə deyil velosipedlə şəhərin küçələrinə çıxır. Bundan əvvəl o, erməni bayrağının rənglərinə boyanan, "məxməri inqilab"ın simvolunu özündə əks etdirən velosipedlə şəhərə gəzintiyə çıxmışdı. O zaman telefonu yerə düşən Paşinyan uğursuz vəziyyətlə üzləşmişdi.

*Məhəmməd Əsədullazadə: "Paşinyanın velosipedlə işə gəlməsi özü barədə islahatçı obrazı yaratmaq cəhdidir"*

O da məlumdur ki, Paşinyan ötən bir ildə hansısa ciddi uğurlara nail ola bilmədi. Çoxsaylı populist vəd versə də, faktiki olaraq, onları həyata keçirmədi. Nəticədə Ermənistan Baş nazirinin cəmiyyətdə həm populyarlığı, həm də nüfuzu aşağı düşməyə başladı. İndi də, görünür, bu variantla diqqət mərkəzində qalmaq istəyir və özü barədə müsbət rəy yaratmağa cəhd edir.

Bütün bunların fonunda, Paşinyanın işə velosipedlə getməsi hansı məqsədlərə hesablana bilər? Onun bunda hədəfi nədir?

**Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən politoloq Məhəmməd Əsədullazada buna bir neçə rakursdan yanaşdı:** "Ermənistanda ötən il baş verən etiraz aksiyaları nəticəsində populist vədlərlə hakimiyyətə gələn Nikol Paşinyan bir il ərzində yalnız ölkədə "Qarabağ klanı"nı təqib etmək və öz hakimiyyətini möhkəmlətməklə məşğul olub. Bir il ərzində, demək olar ki, ölkə heç bir iqtisadi sıçrayışa nail olmayıb. Ola da bilməzdi. Çünki ölkə iqtisadiyyatının 90 faizi Rusiyanın inhisarındadır və bununla Ermənistan iqtisadi müstəqillikdən məhrum olub. Paşinyan bir il ərzində iqtisadi konsepsiyalar qəbul etsə də, bu sənəd kağız parçası olaraq qalıb. Hazırda Ermənistan əhalisi Paşinyandan artıq iqtisadi möcüzə gözləmir. Blokada şəraitində olan və bütün iqtisadi layihələrdən kənarda qalan ölkənin iqtisadi inkişaf perspektivləri görsənmir. Bunu Paşinyan da gözəl anlayır və onun bundan sonra da iqtisadi islahatları yalnız imitasiya xarakteri daşıyacaq. Hesab edirəm ki, Paşinyan ölkənin iqtisadi inkişafına onda nail ola biləcək ki, Azərbaycan və Türkiyəyə qarşı ərazi iddialarından geri çəkilib işğala son qoysun. Paşinyanın velosipedlə işə gəlməsi özü barədə islahatçı obrazı yaratmaq cəhdidir. Ancaq bu, bütün mənalarda, uğursuzdur. Artıq ermənilər Paşinyanın bu kimi jestlərinin yalnız onların başını qatmağa xidmət etdiyini anlayırlar. Çünki Paşinyanın sosial və iqtisadi cəhətdən real islahatlara nail ola bilməməsi ortadadır. O yalnız belə ucuz şoularla erməniləri guya Avropa standartlarına doğru apardığını göstərmək istəyir. Ona görə də Paşinyanın velosipedlə işə gəlməsi simvolikdir. Bu, ölkənin çiçəklənməsi və demokratiyaya gedən yol deyil, aclığa, səfalətə yürüyən yoldur. Fikir versək, bir il ərzində erməni əhalisi inqilabın onlara müsbət sosial həyat verməsiyini, Sarkisyan iqtidarının davamı olduğunu görür. Paşinyanın iqtisadi siyasəti getdikcə iflasa uğrayır".

***Vidadi ORDAHALLI***

# Qarabağda anti-Ermənistan proseslərini Paşinyan rəsmən təsdiqlədi - kim əksinqilaba qalxsa...

**"Əgər bəziləri Qarabağı əksinqilab ocağına çevirsə, xalq oranı inqilab ocağına çevirəcək". Bu fikirləri Ermənistanın Baş naziri Nikol Paşinyan "Facebook" səhifəsində bildirib. Onun fikrincə, mətbuatda bu barədə tez-tez yazırlar: "Mətbuatda tez-tez yazırlar ki, bəzi qüvvələr Qarabağı əksinqilab ocağına çevirmək istəyirlər.**



*"Dağlıq Qarabağdakı separatçılarla Ermənistan rəhbərliyi arasında uçurum böyüyür"*

Qarabağa son səfərim haqda təəssüratları bölüşmək istəyirəm: əgər bəziləri Qarabağı əksinqilab ocağına çevirməyə cəhd edərsə, xalq oranı inqilab ocağına çevirəcək".

Qeyd edək ki, mayın 8-də Paşinyan keçirdiyi uzun-uzadı mətbuat konfransında Qarabağın işğalına başçılıq edənləri - Ermənistanda 20 il hakimiyyətdə olan "Qarabağ klanı"nı kəskin tənqid edib. Onları anbardan taxıl oğurlayan siçovullar adlandırıb və bildirib ki, belələrinin Qarabağ məsələsini həll etmək haqqı yoxdur. Çünki orduda əsgərlər alt paltarı tapmayanda onlar özləri və ailələri milyonçulara çevrilmişdilər.

*Fikrət Sadıqov: "Hesab edirəm ki, bütün bunlar yaşanan qarşıdurmanın etirafıdır"*

Bundan başqa, separatçı qurum təmsilçiləri Paşinyana məktub ünvanlayıb xahiş ediblər ki, həbsdə olan Ermənistanın ikinci prezidenti Robert Köçəryanın Şuşada keçirilən tədbirlərdə iştirakına icazə versin. O isə buna sərt reaksiya verərək demişdi ki, bizim daxili işimizə qarışmayın. Bütün bunlar Paşinyanla Dağlıq Qarabağdakı separatçı qurum arasında olan ziddiyyətləri əyani göstəricisidir. Düzdür, zatən, bu ziddiyyətlərin olması yeni deyil. Ancaq baş verənlər artıq bu ziddiyyətlərin açıq müstəviyə keçməsindən xəbər verir. Paşinyan məlum açıqlaması ilə bunu, bir növ, etiraf etdi. O baxımdan bunu ekspertlər necə dəyərləndirirlər?

**Məsələyə münasibət bildirən keçmiş diplomat, politoloq Fikrət Sadıqovun sözlərinə görə, Ermənistan Baş nazirinin məlum açıqlaması Paşinyanla Qarabağdakı separatçı qurum arasında uçurumun dərinləşməsindən xəbər verir:** "Hiss olunur ki, Dağlıq Qarabağdakı separatçılarla Ermənistan rəhbərliyi arasında uçurum böyüyür. Bu da təsadüfi deyil. Ona görə ki, başda Paşinyan olmaqla indiki hakimiyyət "Qarabağ klanı"nı hakimiyyətdən uzaqlaşdırıb, onların bəzilərini həbs edib. Hələ də Köçəryanı həbsdə saxlayır. Bir ara Paşinyan öz reytinqini qaldırmaq üçün istədi ki, separatçıları danışıqlara qoşsun. Ancaq bu alınmadı. Çünki Azərbaycan buna imkan verməđi, beynəlxalq qurumlar bunu dəstəkləmədilər. Görünən odur ki, tərəflər arasında uçurum daha da böyüyür. Reallıq ondan ibarətdir ki, Paşinyanla Dağlıq Qarabağ separatçıları arasında qarşıdurma açıq müstəviyə keçmək üzrədir. Qarabağ separatçıları bir tərəfdən başa düşürlər ki, onlar İrəvandan asılıdırlar. Çünki onlar elə bir vəziyyətdədirlər ki, Ermənistanın yardımı olmasa duruş gətirə bilməzlər. Ancaq başqa bir tərəfdən, ziddiyyətlər o həddə gəlib çatıb ki, separatçılar Paşinyana qarşı nifrətlərini saxlaya bilmirlər. Çünki gah bəyanatlar verirlər, gah da Köçəryanın həbsdən azad olunması ilə bağlı çağırışlar edirlər. Hesab edirəm ki, bütün bunlar yaşanan qarşıdurmanın etirafıdır. Ən başlıcası isə, qarşıdurmalar artıq açıq müstəviyə keçir. Tərəflər arasında siyasi qarşıdurmanın bundan sonra daha da güclənəcəyi gözlənir. Bütün bunlar Ermənistandakı siyasi mənzərəyə də öz təsirini göstərəcək. Ona görə də qarşıdurma artacaq. Son vaxtlar Paşinyana yönəlik tənqidlərin artması bütün bunların təzahürüdür".

***Vidadi ORDAHALLI***

**ABŞ və İran arasında münasibətlərin savaş həddinə gəlib çıxacağına dair verilən proqnozlar artıq özünü tam şəkildə doğrultmaqdadır. İndi ən yüksək həddə bir-birini müharibə ilə hədələyən tərəflər aktiv şəkildə savaş aparacaqları məkana hərbi qüvvələr cəmləşdirir. Baş verənlərə münasibət bildirən ABŞ prezidenti Donald Tramp qeyd edir: "İran çox təhdidedici davranırdı. Biz İran məsələsində bilmək istəmədiyimiz şeyləri bilirik, bu səbəbdən ölkəmizi qorumaq üçün tədbirlər görməliyik.**

# ABŞ-ın ən iri təyyarədaşıyanı İran körfəzinə çatdı, Səudiyyə şahzadəsinin İslam ölkəsinə hərbi müdaxilə planı...

ABŞ-la İran arasında hərbi qarşıdurma barədə hər zaman danışa bilərsiniz. Buna "xeyr" demək istəmərəm, amma ümid edirəm belə bir şey olmayacaq". O, İranla hərbi münaqişə variantının istisna edilmədiyini deyib: "Mən müharibə variantına yox demək istəmirəm, amma ümid edirəm ki, bu baş verməyəcək. Bizim dünyada ən güclü təyyarədaşıyan gəmimiz olan "Avraam Linkoln" var. İstəmirik ki, heç nə etməyək".

ABŞ dövlət katibi Mayk Pompeo bildirib ki, İran Birləşmiş Ştatların maraqlarına hücuma cəhd etsə, qətiyyətli və sürətli cavabla üzləşəcək. Onun sözlərinə görə, ABŞ-ın təmkinini onun qətiyyətsizliyi kimi başa düşmək lazım deyil: "ABŞ və onların müttəfiqləri İranla müharibəyə cəhd etmir, amma hücum halında sürətli və qətiyyətli cavabı verməyə hazırdır. Son həftələr ərzində Tehran tərəfindən təhlükəli hərəkətlər edilir. 40 ildir Amerika əsgərlərinin İran tərəfindən qətli, Amerika obyektlərinə hücumlar, amerikalıların girov götürülməsi daimi xatırlatmadır ki, biz özümüzü müdafiə etməyə məcburuq".

İran da savaşa hazır olduğunu bəyan edir. İran Silahlı Qüvvələrinin Baş Qərargahı tərəfindən yayılan bəyanatda bununla bağlı bildirilir: "İran Silahlı Qüvvələrinin Baş Qərargahı düşmənləri xəbərdar edir ki, İrana qarşı yönəlmiş hər hansı bir addım onlar üçün peşmançılıqla nəticələnəcək. Düşmən İrana qarşı psixoloji təzyiq vasitələrindən istifadə edərək cəmiyyətdə qarışıqlıq salmaq istəyir. Odur ki, xalqımız ayıq-sayıq olmalı, düşmənin mənasız bəyanatlarına uymamalıdır. ABŞ beynəlxalq razılaşmaya əməl olunmasından imtina edərək İranı zor tətbiq etməklə hədələyir. Lakin İran ordusu həmişə xalqı müdafiə etməyə hazırdır və İrana qarşı hər hansı bir təxribat baş verərsə, onun qarşısı dərhal alınacaq. İran Silahlı Qüvvələri tam hərbi hazırlıq vəziyyətindədir".

Bu arada o da məlum olub ki, Amerikanın İrana getdikcə artan təhdidləri fonunda Pentaqon Qətərdəki "Əl-Udeyd" aviabazasına iki B-52H "Stratofortress" strateji nüvə bombardmançısını göndərib. Həmin təyyarələr nüvə başlıqlı qanadlı raketlər və aviabombalar daşıyır. Bundan əvvəl daha iki belə təyyarə "Əl-Udeyd" bazasına enib. Pentaqon tərəfindən Yaxın Şərqə göndərilən "Avraam Linkoln" təyyarədaşıyan gəmisi də artıq İran sahillərinə çatıb. Fransanın "Le Figaro" qəzeti baş verənlərlə bağlı yazır: "Vaşinqton İranla müharibə istəmir, amma buna hazırdır. Belə bir vaxtda Ər-Riyad da İrana hərbi müdaxilə planı hazırlayıb. Pentaqon bildirir ki, İran ABŞ-ın Yaxın Şərqdəki bazalarını vurmağı planlaşdırır. Bu informasiyanı "Mossad" ötürüb. İranın İnqilab Keşikçiləri Korpusunun hərbi dəniz qüvvələrinin keçmiş komandanı, kontr-admiral Əli Fadavi isə bildirir: "Münaqişə halında biz eyni zamanda hər yerdə olacağıq və qəfil yoxa çıxacağıq , düşmənlərimizi vuracağıq". Dənizdə Amerika gəmilərindən daha sürətli olan İran katerlərinin neft tankerlərinə pusqudan qəfil hücumları dayanacaq. İran belə katerlərdən çox istehsal edib və onları bütöv qruplar halında işə sala biləcək. Bu katerlər reaktiv bombalarla və sonuncu nəsil raketlərlə təchiz olunub. Həmin katerlər Hörmüz körfəzinə minalar düzməklə tankerlərin hərəkətini dayandırar. Sualtı minalar düzmək üçün iranlıların kiçik sualtı qayıqları da var, onların heyəti cəmi iki nəfərdən ibarətdir. Bu sualtılar suyun dərinliyində gözləyib, təyyarədaşıyan yaxınlaşanda üzə çıxa və ona iki torpedo buraxa bilər. Bu fonda Vaşinqton regiondakı müttəfiqlərini, yəni Birləşmiş Ərəb Əmirliklərini və Səudiyyə Ərəbistanını da İrana qarşı sərt addımlar atmağa sövq edir. Həmin ölkələr başa düşürlər ki, ABŞ-dakı növbəti prezident seçkilərinə qədər İrana qarşı sürətlə addımlar atmaq lazımdır. Səudiyyə Ərəbistanının vəliəhd şahzadəsi və müdafiə naziri Məhəmməd Bin Salman artıq İrana hərbi müdaxilə planı hazırlayb".






ABŞ-ın "The Foreign Policy" nəşri də savaşın artıq yaxın tezlikdə bütün regionu bürüyəcəyini yazır: "ABŞ prezidenti Donlad Trampın administrasiyası Vaşinqtonun 2015-ci il nüvə sazişindən çıxdığını bildirəndən və antiiran sanksiyalarını təzələyəndən bir il sonra, görünür, İranın səbri və sazişin şərtlərini yerinə yetirməyə razılığı tükənib. Mayın 8-də Tehranda bildiriblər ki, İran nüvə sazişinin bir sıra əsas bəndlərinə əməl etməkdən əl çəkəcək. Kolumbiya Universitetinin Kürəsəl Energetika Siyasəti Mərkəzinin baş elmi işçisi Riçard Nefyu bildirir ki, bu hal artıq sonun başlanğıcıdır: "Gerçək problem bundan ibarətdir ki, biz indi geriyə, qovğaya qayıtmışıq. İran 60 günlük saat qurub. Şübhəsiz, ABŞ tərəfdən cavab zərbəsi yeni sanksiyalar olacaq. Bu qayda ilə qaçılmaz eskalasiya riski var". İranla bağlı durum ABŞ-a münasibətlərin son bir neçə gündə gərginliyin gücləndiyi fonda dönüşür. Tramp administrasiyasında bildiriblər ki, Vaşinqtonun fikrincə, İran, İraqda Amerika qoşunlarına mümkün hücum da daxil olmaqla, bölgədə Birləşmiş Ştatların maraqlarına qarşı cavab tədbirləri görməyə hazırlaşır. Ekspertlər, hər şeydən çox, İrana yardım edilməzsə, 2019-cu ilin yayında nə baş verəcəyindən narahatdır.

Zənginləşdirilmiş uran ehtiyatlarına məhdudiyyətin götürülməsi isə İranı nüvə silahı yaratmaq yoluna qaytarar".

***Tahir TAĞIYEV***

**Məlum olduğu kimi, bu günlərdə Ankarada "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti, "Rusiya Dəmir Yolları" Açıq Səhmdar Cəmiyyəti və "Türkiyə Dövlət Dəmir Yolları" arasında əməkdaşlığa dair anlaşma memorandumu imzalanıb. Memorandum Avrasiyadakı beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafı və istismarı, o cümlədən xarici iqtisadi əlaqələrin genişləndirilməsi, eləcə də tranzit və ixracidxal daşımaları üçün optimal nəqliyyat şəraitinin təmin edilməsi məqsədilə koordinasiyalı siyasət həyata keçirilməsinə yönəlib.**

# Gürcüstandan Bakı-Tiflis-Qarsla bağlı yeni anlaşmaya anlaşılmaz reaksiya...

Məlumata əsasən, tərəflər dəmir yolu sahəsində əməkdaşlığı, o cümlədən milli dəmir yolu şirkətlərinin nəqliyyat və tranzit potensialının artırılmasını "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinin Qərb marşrutu çərçivəsində İran-Azərbaycan-Rusiya-Avropa marşrutları, eləcə də Bakı-Tiflis-Qars dəmir yolunun infrastrukturu vasitəsilə Rusiya-Azərbaycan-Türkiyə marşrutu üzrə yük daşımalarının artmasına kömək edəcək tədbirlərin birgə həyata keçirilməsi yolu ilə inkişaf etdirmək niyyətindədir. Bundan başqa, "Rusiya Dəmir Yolları" ASC ilə "Azərbaycan Dəmir Yolları" QSC "Şimal-Cənub" dəhlizinin Qərb marşrutuna və digər marşrutlara konteyner qatarları ilə daşımalar üçün əlavə yüklərin cəlb edilməsi barədə razılığa gəlib. Digər tərəfdən, şirkətlər öz səylərini Şərq-Qərb istiqamətində tranzit daşımalarının inkişafına, ilk növbədə, Azərbaycanla Çin, eləcə də Çin və digər ölkələr arasında daşımaların Rusiya və Azərbaycan üzərindən həyata keçirilməsinə yönəldəcək. Yüklərin çatdırılma vaxtını azaltmaq üçün sərhəd və gömrük prosedurlarının optimallaşdırılması, o cümlədən elektron məlumat mübadiləsi və elektron şəkildə ilkin məlumatlandırma üzrə işlərin həyata keçirilməsi planlaşdırılır. Bütün bunlar iştirakçı ölkələrin tranzit daşımalardan daha çox gəlir əldə etməsinə, qarşılıqlı iqtisadi əlaqələrin daha da dərinləşməsinə hesablanıb. Bu fonda belə məlum olur ki, Bakı-Tiflis-Qars dəmir yolu üzərindən də daşınan yüklərin həcmi xeyli artacaq. Xüsusən də görünən budur ki, Rusiya bu dəmir yolunun imkanlarından daha çox istifadə etməyə çalışır. Elə Ankarada da diqqətə çatdırılıb ki, Azərbaycan, Türkiyə və Rusiya arasında dəmir yolu sahəsini əhatə edən üçtərəfli əməkdaşlıq Bakı-Tiflis-Qarsın fəaliyyətində canlanma yaradacaq. O da vurğulanıb ki, əməkdaşlığın yeni forması Rusiyanın şərqindəki dəniz limanlarına daxil olan yüklərin Qafqazdan və Anadoludan keçməklə mənzilbaşına çatmasını təmin edəcək.

Aydındır ki, bu vəziyyətdə Bakı-Tiflis-Qarsın bir hissəsi ərazisindən keçdiyi üçün Gürcüstan da böyük həcmdə gəlir əldə edəcək. Amma görünən budur ki, gürcü tərəfi məsələnin onun üçün nə dərəcədə vacib əhəmiyyət kəsb etməsini qəbul etmək niyyətində deyil. Hər halda, Ankarada əldə edilən razılığa gürcülərin reaksiyası bunu deməyə əsas verir. Gürcüstanın baş naziri Mamuka Baxtadze bu xüsusda bildirib: "Bakı-Tiflis-Qars layihəsi Gürcüstan üçün strateji əhəmiyyət kəsb edir. Gürcüstan, Azərbaycan və Türkiyə arasında imzalanmış Bakı-Tiflis-Qars layihəsinin reallaşdırılması ilə bağlı prinsiplər konkret olaraq müəyyən olunub. İşlərin böyük hissəsi başa çatdırılıb və biz bu layihəni artıq mövcud olan mühəndis həlli əsasında yekunlaşdıracağıq. Ankarada Rusiya, Türkiyə və Azərbaycan dəmir yolları idarələrinin imzaladığı memoranduma gəlincə, Bakı-Tiflis-Qars layihəsinə digər iştirakçıların qoşulması Gürcüstan, Azərbaycan və Türkiyə arasında birgə razılıq əsasında mümkün ola bilər".

Gürcüstanın iqtisadiyyat və davamlı inkişaf naziri Natia Turnava isə məsələyə bir qədər də sərt yanaşıb: "Gürcüstanın iştirakı olmadan Bakı-Tiflis-Qars layihəsinin konfiqurasiyasına hər hansı dəyişiklik edilməsi mümkün deyil". Nazir deyib ki, Bakı-Tiflis-Qars Gürcüstan üçün strateji layihədir və ölkənin suveren maraqlarına cavab verir: "Layihə üç dövlət tərəfindən razılaşdırılıb və təsdiqlənib. Hansısa bir iştirakçı dövlət birtərəfli qaydada layihəyə dəyişiklik etmək hüququna malik deyil. Biz bu layihəni təsdiq olunan formada reallaşdırırıq". Turnava qeyd edib ki, layihə ilə bağlı müxtəlif formatlarda müxtəlif görüşlər keçirilə bilər: "Bu görüşlər bizim bölgəyə yüklərin cəlb olunması ilə bağlı ola bilər. Gürcüstanın iştirakı olmadan layihəyə hər hansı bir dəyişiklik edilə bilməz. Ankarada Rusiya, Türkiyə və Azərbaycan dəmir yolları idarələri rəhbərlərinin görüşü, çox güman ki, digər mövzularla bağlı olub". Gürcüsütanın Ankara görüşünə belə aqressiv yanaşmasının səbəbləri bəlli olmasa da, real vəziyyət, əslində Tiflisin özünün də maraqlarına cavab vermir. Məsələ burasındadır ki, Azərbaycan və Türkiyə Bakı-Tiflis-Qarsa daha çox dövlətin qoşulmasını istəyir. Bura böyük ixrac potensialına malik Rusiya da daxildir. Bu mənada, Ankarada imzalanan sənəd əslində mühüm uğur sayıla bilər və belə vəziyyət Gürcüstanın da gəlirlərinin artması deməkdir. Amma bunu müsbət qarşılamaq əvəzinə, gürcü rəsmilərinin məsələyə reaksiyası anlaşılmaz mahiyyət daşıyır. Rusiya isə, gürcü tərəfinin mövqeyinə rəğmən, yüklərinin Bakı-Tiflis-Qarsla daşınmasında maraqlı tərəf kimi çıxış edir. İndinin özündə də Rusiyanın Maqnitoqorsk Metallurgiya kombinatının yükləri bu dəmir yolu vasitəsilə nəql edilməkdə davam etdirilir. Bu vaxta kimi Rusiyada istehsal edilən təbəqə dəmir Türkiyəyə konteynerlər vasitəsilə daşınırdısa, artıq nəql prosesinin yük vaqonları vasitəsilə həyata keçirilməsinə başlanılıb. Daha çox yükgötürmə qabiliyyətinə malik vaqonlar vasitəsilə daşımanın həyata keçirilməsi iqtisadi cəhətdən səmərəli sayılır. Xatırladaq ki, bu vaxta kimi Maqnitoqorsk Metallurgiya Kombinatı öz məhsulunu Türkiyəyə Qara dəniz vasitəsilə çatdırırdı. Ümumiyyətlə isə, bu Kombinat Türkiyəyə ayda 60 min tona yaxın dəmir məhsulu göndərir ki, onun da bir hissəsi artıq Bakı-Tiflis-Qarsla nəql edilir.



**Rusiya bu dəmir yolu ilə taxıl, taxta və digər məhsullar da daşımaqda maraqlıdır. Bütün bunlar iştirakçı ölkələr, o cümlədən də Gürcüstan üçün əlavə gəlirlər deməkdir. Bu mənada, Tiflisin məlum Ankara razılaşmasına qarşı çıxması sadəcə təəccüb doğurur.**

***Nahid SALAYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



# Paşinyan Brüsseldə və Vaşinqtonda gözlənilən Qarabağ danışıqlarını iflic edən addımlar atdı...

**Sözü və əməli bir-birilə ciddi ziddiyyət təşkil edən Ermənistan baş naziri Nikol Paşinyanın son addımları Dağlıq Qarabağ münaqişəsinin güc müstəvisində həlli ehtimalını artırır. Belə görünür ki, İrəvanın atdığı addımlar fonunda Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Vaşinqtonda gözlənilən görüşü də hansısa nəticə verməyəcək. Eləcə də, bu gedişlə Azərbaycan və Ermənistan rəhbərlərinin Brüsseldə nəzərdə tutulan görüşünün də arxa plana keçməsi istisnalıq təşkil etmir.**

Bütün bunlara əsas səbəb İrəvanın Dağlıq Qarabağ münaqişəsinin dinc yolla həll edilməsi niyyətindən uzaq olmasıdır.

Ekspertlər hesab edir ki, ölkə liderlərinin, eləcə də xarici işlər nazirlərinin görüşünə hazırlıq getdiyi bir vaxtda Paşinyanın təxribatçı addımlara getməsi bir daha onunla mümkün konstruktiv razılaşmaların əldə edilə biləcəyini ciddi sual altına alır. Söhbət Paşinyanın siyasətinin Ermənistanda əvvəl mövcud olan hakimiyyətlərdən nəyəsə görə fərqlənməməsindən gedir. Elə onun növbəti Qarabağ səfəri və Şuşa şəhərinin işğalı şərəfinə düzənlənən mərasimdəki iştirakı da bunu təsdiq edir. Xatırladaq ki, Şuşanın işğalının 27-ci ilini qeyd etmək üçün, bu işğalda rol oynamış və əli dinc azərbaycanlıların qanına batmış sabiq prezident Sarkisyan da daxil olmaqla, bir çox erməni rəsmisi Şuşaya gəlib. Onların arasında olan Paşinyanın əvvəlcə işğal şərəfinə şərab içməsi, daha sonra isə Azərbaycan şəhərində Azərbaycan xalq mahnısına oynayan ermənilərə qoşulub "Yallı" getməsini bütün erməni mediası və sosial şəbəkə istifadəçiləri yayıb. Qeyd edək ki, Paşinyanın bu addımı Azərbaycan tərəfində kəskin reaksiya doğurub. Azərbaycan Xarici İşlər Nazirlyinin mətbuat katibi Leyla Abdullayeva hadisələrin bundan sonrakı mümkün inkişafı ilə bağlı bütün məsuliyyətin Ermənistan rəhbərliyinin üzərinə düşdüyünü bildirib: "Bütün beynəlxalq ictimaiyyət və beynəlxalq təşkilatlar Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünü tanıyır. Ermənistan rəhbərliyi nə qədər tez bu reallığı dərk edərsə və ilk növbədə öz əhalisini aldatmağa son qoyarsa, bir o qədər də tez bölgədə sülh, sabitlik və dayanıqlı inkişaf təmin olunar".

Amma görünən budur ki, İrəvan rəsmiləri mövcud reallığı hələ də dərk etmək niyyətində deyillər və bu hal da savaşı tətikləyən faktor qismində çıxış edir. Elə hərbi ekspert Şair Ramaldanov da məsələyə məhz bu prizmadan yanaşır: "Paşinyanın Şuşada şərab içib Azərbaycan mahnısına rəqs etməsi onu göstərir ki, Azərbaycan artıq bu məsələni güc yolu ilə həll etməlidir". O bildirib ki, Ermənistana hansı hakimiyyət gəlir-gəlsin, Dağlıq Qarabağla bağlı vəziyyət dəyişməyəcək və onlar işğalçı siyasətlərini davam etdirəcəklər: "Azərbaycan öz torpaqlarını güc yolu ilə almayana qədər onların işğalçı siyasətləri bitməyəcək. Bir dövlətin başçısı oğlunu separatçı rejimin tərkibində xidmət etməyə göndərirsə, ondan hər şey gözləmək olar. Paşinyanın apardığı ucuz siyasət onu göstərir ki, Ermənistan müstəqil deyil, onu idarə edən qüvvələr var. Bu qüvvələr imkan verməyəcək ki, Ermənistan hökuməti müstəqil addımlar atsın. Onlar hər zaman kənar qüvvələrin çaldığı havaya oynayacaq. Paşinyanın Şuşaya getməsi, işğal altında olan torpaqlarda bayram etməsi göstərir ki, Azərbaycanın bu məsələdə bir yolu var, o da müharibə yoludur. Mən hesab edirəm, artıq müəyyən bir fürsət olan kimi Azərbaycan öz qərarına sadiq qalaraq, torpaqlarımızı güc yolu ilə geri alacaq. Bu, Paşinyana və qondarma "dqr" rəhbərlərinə vurulan ən sərt zərbə olacaq".

Eyni mövqeyi millət vəkili Aydın Mirzəzadə də bölüşür: "Ermənistanın baş naziri Nikol Paşinyanın Azərbaycan Dağlıq Qarabağ bölgəsinə, Şuşaya qanunsuz səfəri onun xarici siyasətində heç nəyin dəyişmədiyini göstərir. Gözləmək olardı ki, keçmiş prezident Sarkisyanın siyasətinə etiraz edən xalqın dəstəyilə hakimiyyətə gələn bu az tanınan siyasətçi Ermənistanın xarici siyasətində müəyyən dəyişikliklər edəcək. Amma zaman keçdikcə məlum olur ki, bu dəyişikliklər yoxdur və məhz bunun nəticəsidir ki, Ermənistanın özündə Paşinyanın reytinqi günü-gündən azalmaqdadır". Millət vəkili bildirib ki, Ermənistanın mövcud problemlərinin kökündə ilk növbədə onun Azərbaycana qarşı işğalçılıq siyasətinin dayanması hələ də yeni hakimiyyətin düşüncəsinə hakim ola bilmir: "Paşinyanın yenə də işğalçılıq siyasətini davam etdirməsi, Azərbaycana qarşı təxribatçılıq hərəkətləri törətməsi Sarkisyanın fəaliyyətindən heç nə ilə fərqlənmir. Amma bir məsələ var: eyni siyasət eyni nəticə ilə sonuclanır, bitir və bu baxımdan tamamilə gözləniləndir ki, müəyyən dövrdən sonra cəbhə xəttində, Ermənistanın təxribatlarına cavab olaraq, yenidən Aprel hadisələri sayağı hadisələr baş versin. Tamamilə gözləniləndir ki, Ermənistanın özündə Paşinyan siyasətinə qarşı daha güclü etiraz dalğası başlasın. Tamamilə gözləniləndir ki, Ermənistan Sarkisyan-Paşinyan siyasəti nəticəsində tamam pis, dözülməz vəziyyətə düşsün. Eyni zamanda, Paşinyan hesab edirsə ki, onun ritorikası Azərbaycanı yanlış yola döndərəcək, yaxud da Azərbaycan onun provakasiyalı hərəkətlərinə göz yumacaq, çox yanılır. Azərbaycan öz mənafeyini, öz qürurunu qorumaq qüdrətindədir və bu cür hərəkətlər Azərbaycan tərəfindən çox sərt reaksiya ilə üzləşəcək".

Beləliklə, proseslərin gedişi Qarabağ münaqişəsinin dinc həll imkanlarının getdikcə tükənməkdə olduğunu göstərir. Əslində, bunu Ermənistanda da yaxşı başa düşürlər. Qarabağın işğalında yaxından iştirak etmiş erməni general Arkadi Ter-Tadevosyan bu xüsusda bildirir: "Biz müharibənin davamına hazır olmalıyıq. Qarabağda sülh planlarına inanmıram. Bizim yeganə yolumuz ordunu gücləndirməkdir. Bu sahədə ciddi problemlər var. Amma yenə biz ordunu hazırlamalı və gələcək müharibəyə hazırlamalıyıq. Bu olmasa, yeni savaşda Azərbaycan istədiyi nəticəyə sürətlə yaxınlaşa bilər". Ermənistanın "Past" nəşri də yazır ki, Qarabağ məsələsinin sülh yolu ilə həllinə inam yoxdur və bu səbəbdən Azərbaycan aktiv savaşa hazırlıq görür: "Bu savaş əvvəlkindən xeyli fərqlənəcək. Nəzərə almaq lazımdır ki, Azərbaycan ordusunu gücləndirmək üçün milyardlar xərcləyib. Ermənistanda isə bu sahə üzrə hələ də müsbət fikirlər səsləndirmək mümkün deyil. Eyni zamanda, əvvəllər biz Rusiyanın müdafiəsinə arxayın ola bilərdiksə, indi bundan da məhrumuq. Əksinə, Rusiyanın Ermənistanla bağlı başqa planları var. Hətta məlumdur ki, ekspertlərə Ermənistanda ilin sonunadək ehtimal edilən daxili siyasi proseslərə proqnoz verilməsinə dair göstəriş verilib. Bu tapşırıq Rusiya baş naziri Dmitri Medvedyevin İrəvan səfərindən sonra baş verib. Rusiya analitik mərkəzlərinə, xüsusilə güc strukturları ilə bərabər işləyən mərkəzlərə Ermənistanda ilin sonunadək ehtimal edilən daxili siyasi proseslərə, ssenarilərə və bunun əsasında ehtimal edilən siyasi inkişaf proseslərinə və yenidən düzülüş formalarını əks etdirən proqnozların verilməsinə dair göstəriş verilib. Bu yenidən düzülüşün, İran və Qarabağ faktorunu da nəzərə almaqla, bölgəyə ehtimal edilən təsirinin araşdırılmasına dair də göstəriş verilib. Diqqət çəkən məqam odur ki, bu tapşırıq Dmitri Medvedyevin İrəvan səfərindən sonra baş verib. Ekspertlər Rusiya baş nazirinin İrəvanda nə hiss etdiyini, yaxud rusların güc strukturları ilə yanaşı fəaliyyət göstərən analitik mərkəzlərə göstəriş verilməsinə səbəb olan hansı məlumata malik olduqlarını dərk etməyə çalışırlar. Məlumatlar var ki, Rusiya Ermənistanda hakimiyyət dəyişikliyi istəyir və bu məqsədlə çoxsaylı faktorlardan istifadə olunacaq. Məsələn, məlumdur ki, Serj Sarksiyan hakimiyyətinin devrilməsində 2016-cı ilin aprel döyüşləri mühüm rol oynadı. İndi Qarabağda buna bənzər savaşın təşkili Paşinyan üçün də ciddi problem və daxildə böyük narazılıq yaradacaq. Yeni aprel savaşı və bənzər nəticələrin olmasına Ermənistan çətin davam gətirsin. Elə Azərbaycanın da bu dəfə dayanması inandırıcı deyil".

Hesab olunur ki, Ermənistanın Qarabağ məsələsində məlum mövqeyi və Rusiyanın belə vəziyyətdə onun arxasından çəkilməsi yeni Qarabağ savaşının uzaqda olmadığının göstəricisidir. Elə rusiyalı analitik Stanislav Tarasov da bildirir ki, Rusiyanın Ermənistana münasibəti Qarabağ məsələsində çox şeyi həll edir: "Belə bir vaxtda Avrasiya hökumətlərarası şurasının iclası zamanı baş verən hadisə, yəni Rusiya baş naziri Dmitri Medvedyevin Ermənistan baş nazirinin ifadə etdiyi "pereydyom..." (keçirik...) kəlməsini ifadə etməsinə gizlətmədən istehza ilə lağ etməsi müxtəlif şərhlərin səsləndirilməsinə səbəb olub. Bəzilərinin düşüncəsinə görə bu, uğursuz zarafat olub, lakin digərlərinin fikrincə, bu hərəkətlə rus-erməni münasibətlərinin hazırkı vəziyyəti nümayiş etdirilib. İkili standartların hökm sürdüyü vaxtlarda Rusiya tərəfindən Ermənistanın tənqid edildiyi faktdır. Hazırda amerikalıların Paşinyana necə hörmətsizlik etdiyinin şahidiyik... Moskva isə Paşinyana adekvat yanaşır. ABŞ-ın postsovet məkanında özünü necə apardığını bilirik, bizim təcrübəmiz var. Bu, Paşinyanın onların ümidlərini doğrultmadığından xəbər verir.

Rusiya da Paşinyandan gözlədiklərini ala bilmir. Bax, bu vəziyyətdə Moskva, iqtisadi rıçaqlarla yanaşı, Qarabağ kartından da istifadəni artıq mümkün sayır. Çünki Qarabağ məsələsinin Ermənistanda hansı nəticələrə gətirib çıxardığıın yaxşı bilir. Deyək ki, Azərbaycanın zəbt olunmuş ərazilərdən daha bir hissəsini öz nəzarətinə qaytarmasına Moskvanın razılıq verməsinin erməni cəmiyyətində Paşinyana qarşı çox ciddi etiraz yaradacağını Kremldə də yaxşı bilirlər".

Məhz bütün bunlar fonunda digər ekspertlər də Qarabağ münaqişəsinin yenidən alovlana biləcəyini proqnozlaşdırır. Bunun qarşısının alınmasının yeganə yolu Ermənistanın zəbt olunmuş əraziləri dinc yolla azad etməsidir. Əks təqdirdə məsələni ordumuzun həll etməsi qaçılmaz sayılır.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Azərbaycana Çindən və Türkiyədən karqo daşımalarında təhlükəli ziddiyyət... Gömrük Komitəsi necə izah verdi...

**Son vaxtlar sahibkarlıqla məşğul olan şəxslərin ölkəmizə daşınma həyata keçirən karqo şirkətlərinin qiyməti kəskin artırdığından şikayətləndikləri nəzərə çarpır. Onlar bildirirlər ki, hətta vəziyyət o həddə çatıb ki, daşınma xərclərinin kəskin bahalaşması bir qrup sahibkarı vadar edir ki, bizneslərini başqa ölkələrə köçürsün. Ölkənin iri ticarət mərkəzi sayılan "Binə" və "Sədərək" kimi topdansatış bazarlarında fəaliyyət göstərən sahibkarlarla karqo şirkətləri arasında ciddi narazılığın yarandığı da qeyd olunur.**

Sahibkarların sözlərinə görə, son 1 il ərzində daşımaçılıq xidmətinin qiyməti 150 faiz artıb. Bu gün Çin Xalq Respublikasından Azərbaycana gətirilən müxtəlif mallar üzrə daşımaçılığın 1 kubu 750 dollar civarında dəyişir. Bu da, ilk növbədə, sahibkarlar üçün əlavə vəsait itkisidir, bundan əlavə, malın maya dəyərinin kifayət qədər bahalaşmasına gətirib çıxarır".

Qeyd edək ki, Azərbaycan MDB məkanında daşımaçılıq xidmətinin baha olmasına görə ən öndə gedən ölkə sayılır. Məsələn, Çinin eyni məsafəli şəhərindən Moskvaya yükün 1 kiloqramı 2 dollara aparılırsa, həmin şəhərdən Bakıya yükün 1 kiloqramı 5 dollara gətirilir. Başqa bir misal, İstanbuldan Bakıya vurulan malın 1 kiloqramı 3.70 dollardır, amma İstanbuldan Dağıstana vurulan malın 1 kiloqramı 2 dollardır.

Sahibkarların sözlərinə görə, karqo rəhbərləri qiymət artımının səbəbini Azərbaycan Dövlət Gömrük Komitəsinin tətbiq etdiyi rüsumlarla əlaqələndirirlər.

Bütün bu sahibkarlar çıxılmaz vəziyyətə düşüb. Ölkə Prezidenti İlham Əliyev dəfələrlə sahibkarların fəaliyyətinə yersiz müdaxilələrin qarşısının alınması, özəl sektorda inkişafa mane olan süni problemlərin həlli istiqamətində tapşırıqlarını verib. Amma, göründüyü kimi, bu gün sahibkarlar daşınma sahəsindəki qiymətlərin hər gün artması ilə bağlı həyəcan təbili çalırlar. Onlar, həmçinin, bildirirlər ki, hər gün artan qiyməti ödəyə bilmədikləri üçün, malları günlər, bəzən isə aylarla anbarlarda qalır. Bu da mövsümi malların bazara gec daxil olmasına gətirib çıxarır. Sahibkarların bu vəziyyətə düşməsinin səbəbini kimdə axtarmaq lazımdır?

Dövlət Gömrük Komitəsinin Mətbuat xidmətinin rəhbəri Natiq Axundov "Bakı-Xəbər"ə açıqlamasında səslənən iradlarla razılaşmadı: "Bilirsiniz, bu məsələdə Dövlət Gömrük Komitəsinin adını hallandırmaq yersizdir. Sahibkarların narazılığının bizim qurumla heç bir əlaqəsi yoxdur. Axı bu qiymət siyasətini gömrük müəyyən etmir. Yaxşı olar ki, yaranmış vəziyyəti sahibkarlar karqo rəhbərləri ilə aydınlaşdırsınlar. Karqo rəhbərləri özlərini məsuliyyətdən yayındırmaq üçün çox şey deyə bilərlər, amma mən rəsmi olaraq deyirəm ki, gömrük rüsumlarında heç bir artım yoxdur. Biz yalnız dövlətin müəyyən etdiyi rüsumu tələb edirik".




Qurumun Mətbuat xidmətinin rəhbəri istisna etmir ki, bunun bir səbəbi də karqo rəhbərlərinin gömrük rüsumlarını ödəməkdən yayına bilməməsidir: "Bilirsiniz ki, bu istiqamətdə nizam-intizam çox sərtləşib. Görünür, bu iş prinsipi karqo rəhbərlərinə sərf etmədiyi üçün, onlar günahı başqa ünvanda axtarmağa çalışırlar".

İqtisadçı Elşən Əliyev isə hesab edir ki, burada bir sıra amillərin təsiri var: "Karqo qiyməti doğrudan da son ildə bahalaşıb. Gömrük Komitəsinin dövlət rüsumundan artıq pul tələb etmək haqqı yoxdur. Görünür, qayda-qanunların sərtləşməsi həm sahibkarlara, həm də karqo rəhbərlərinə sərf etmir. Əgər rəsmi rüsum qalxmayıbsa, onda qiymət necə arta bilər? Demək, bu nəticəyə gəlinir ki, əvvəl müəyyən sövdələşmələrin müqabilində büdcəyə ödənilməli olan vəsaitlərin yayındırılması mümkün olurmuş. Bunun da müqabilində qiymət ucuz gəlirdi. Əgər rəsmi qiymətin tətbiqi başqa ölkələrlə qiymətdə kəskin ziddiyyət yaradırsa, onda məsələyə daha yuxarı instansiyalarda baxılmalıdır. Bunun da müqabilində rüsumlar real şərtlərə uyğunlaşdırılmalıdır".

*Məhəmmədəli QƏRİBLİ*

# İstehlak bazarımızda hələ də saxta aksiz markalı mallar var...

**Dünyanın hər yerində olduğu kimi, Azərbaycanda da saxta aksizlər mövcuddur. Bütün bunlara qarşı mübarizə aparılır. Aparılan mübarizələr nəticəsində ölkəmizin paytaxtında və bölgələrdə pərakəndə ticarət müəssisələrində aksiz markası olmayan və saxta aksiz markaları ilə markalanmış malların (əsasən tütün məmulatları və spirtli içkilər) satışı baş verir.**



*"Əhalinin özü bu problemlə mübarizə aparmaq üçün nəzarətçiyə çevrilməlidir"*

## Natiq Cəfərli: *"Saxta aksiz markası problemi tək ölkədə deyil, bütün dünyada mövcuddur"*

Vergilər Nazirliyi tərəfindən aparılan müşahidələr zamanı belə məhsulların satışının həyata keçirildiyi əsas obyektlərin dislokasiyası müəyyən edilib. Ancaq bu sahədə görülən işlərə baxmayaraq, hələ də saxta aksiz markalarından istifadə halları yaşanır.

Məlumat üçün bildirək ki, Prezident İlham Əliyev "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununun tətbiqi barədə Fərman imzalayıb. Fərmana əsasən, saxta aksiz markalarının dövriyyəsinə görə cərimələr müəyyənləşib. Belə ki, İnzibati Xətalar Məcəlləsinin 229-cu maddəsinə əsasən, belə marka olmadan məhsulların az miqdarda satılmasına, satış məqsədilə saxlanmasına və ya istehsal binasının hüdudlarından kənara çıxarılmasına görə fiziki şəxslər 35 manatdan 40 manatadək, vəzifəli şəxslər 80 manatdan 90 manatadək, hüquqi şəxslər isə 200 manatdan 300 manatadək miqdarda cərimə edilirlər. Lakin belə məhsullar xeyli (500-2000 manat) və ya külli miqdarda (2000 manatdan yuxarı) aşkar edilərsə, bu zaman məsuliyyət Cinayət Məcəlləsi ilə tənzimlənir. Cinayət Məcəlləsinin 213-1.1-ci maddəsinə əsasən, aksiz markası ilə markalanmalı olan məhsulları xeyli miqdarda istehsaletmə, satma və idxala görə 2000 manatdan 3000 manatadək miqdarda cərimə və ya bir ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlıqdan məhrumetmə cəzası nəzərdə tutulub. Eyni əməllər külli miqdar təşkil etməklə, eləcə də təkrar və qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə beş ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

**Saxta aksiz markalarına qarşı mübarizənin necə və hansı formada aparılmasını öyrənmək üçün iqtisadçı-ekspert Natiq Cəfərliyə müraciət etdik.**

O, "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, saxta aksiz markası problemi tək ölkədə deyil, bütün dünyada mövcuddur: "Təmiz bizneslə məşğul olmağı qarşısına məqsəd qoymayanlar saxta aksiz markasından istifadə edirlər. Bəzi Avropa ölkələrində məlum problem çox yaşanır, bəzilərində isə azdır. Şimali Avropa ölkələrində çox az rast gəlinən haldır. Cəza və nəzarət yüksək olan ölkələrdə bu problemlərə az rast gəlinir. Ancaq ölkəmizdə və qonşu Türkiyədə, Rusiya, Ukrayna və digər ölkələrdə saxta aksiz markalarının çap olunması və istifadəsi geniş yayılıb".

Həmsöhbətimiz hesab edir ki, Azərbaycanda saxta aksiz markaları ilə mübarizə bir neçə istiqamətdə aparılmalıdır. İlk növbədə, qanunvericilik daha da sərtləşdirilməlidir. Daha sonra nəzarət mexanizmləri şəffaflaşdırılmalıdır: "Bununla yanaşı, əhali bu işə cəlb olunmalıdır. Əhalinin özü bu problemlə mübarizə aparmaq üçün nəzarətçiyə çevrilməlidir. Yazılı və şifahi mediada saxta aksiz markalarının, ilk növbədə, vətəndaşa ziyanı haqqında məlumatlar yayılmalıdır".

*Günel CƏLİLOVA*

# "E-manat" ödəniş aparatlarının marketlərdə quraşdırılmasında qeyri-şəffaflıq ittihamları dolaşır

**Kiçik sahibkarlıq fəaliyyəti ilə məşğul olan Seymur Süleymanov adlı vətəndaş redaksiyamızla əlaqə saxlayaraq, mağazalarda ödəniş terminalları quraşdıran "Modenis MMC" adlı qurumun fəaliyyətindən narazılığını ifadə edib. Onun sözlərinə görə, Xətai rayonu, Günəşli qəsəbəsində işlətdiyi 30 kvadratmetrlik mağazaya ödəniş terminalı quraşdırmaq istəyərkən maraqlı halla rastlaşıb:**




***Seymur Süleymanov:*** *"Dedilər ki, sən də gəlsəydin, anlaşa bilərdik"*

***Elvin Əliyev:*** *"Bu məsələdə bizim hər hansı marağımız yoxdur ki, mağaza sahibləri ilə sövdələşməyə gedək"*

"Bir müddət əvvəl mağazamda "E-manat" tipli ödəniş aparatı quraşdırmaq istədim. Mənim mağazam məhəllə arasında olduğu üçün, əhali ödənişin haradan edilməsinin mümkünlüyü ilə bağlı çoxlu sual verirdi. Çünki yaxın ətrafda belə bir aparat yox idi. Bir ticarətçi kimi hesab etdim ki, bu həm də magazada alış-verişi artıra bilər. Çünki mağazaya ödəniş üçün girən vətəndaş nəsə ala da bilər. Əslində, belə terminalların quraşdırılmasında şirkətin özü maraqlı olmalıdır. Çünki bundan onlara xeyir var. Hətta şərtlərə görə, şirkət aparatını qoyduğu mağazaya icarə haqqı ödənişi də edir. Amma işin içinə girdikdə, burada başqa reallıqların olduğunu gördüm. Oranın iş nömrəsinə zəng vurdum. Xanım məni aidiyyati şöbə ilə calaşdırdı. Dedilər ki, bu bizim kriteriyalara uyğun deyil. Çünki 100 kvadratdan aşağı yerə aparat qoymuruq. Üstündən bir müddət keçəndən sonra, 20 metr məndən aralıda olan mağazada belə bir terminalın quraşdırıldığını gördüm. Həmin mağazanın kvadratı mənim mağazamdan maksimum 2-3 metr artıq olar. Yəni onların dediyi 100 kvadrat sahədən söhbət belə gedə bilməzdi. Mənə maraqlı gəldiyi üçün, həmin şirkətlə yenidən əlaqə saxladım. Dedilər ki, bu cür işlər telefonla həll edilmir. Həmin mağazanın müdirinin özü gəlib danışıb. Sən də gəlsəydin, anlaşa bilərdik. Cavabımda dedim ki, mən şirkətin müəyyən etdiyi qaydalarla işlədiyini zənn etdiyim üçün, həmin addımı atmadım. Buradan belə nəticə çıxardım ki, "Modenis MMC"nin fəaliyyəti heç də şəffaf qurulmayıb. Ortadakı nəticə bunu deməyə əsas verir. Xahiş edirəm, bu məsələni ictimailəşdirin".

**Vətəndaşın şikayətini araşdırmaq üçün sözügedən şirkətlə əlaqə saxladıq. Şirkətin rəsmisi Elvin Əliyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, şirkət həmin terminalları quraşdırarkən müəyyən şərtlər və tələblərə riayət edir:** "Biz əsasən terminalları böyükhəcmli supermarketlərdə quraşdırmağa üstünlük veririk. Ola bilər ki, müəyyən istisnaları da nəzərə alaq. Əgər hansısa ərazidə böyük supermarket yoxdursa, onda biz tələbi nəzərə alıb, kiçikhəcmli marketlərdə də terminalımızı qoyuruq. Bizim xidmət sahəmiz yalnız ticarət obyektləri ilə məhdudlaşmır. Böyük xəstəxanalar, dövlət qurumlarında da terminallar qoyuruq. Burada kvadratdan əlavə, həm də mağazanın təhlükəsizliyi, necə mühafizə olunması da nəzərə alınır. Yəni bu məsələdə bizim hər hansı marağımız yoxdur ki, mağaza sahibləri ilə sövdələşməyə gedək.

Hətta terminalı qoyduğumuz yerlə bağlı bir müddət müşahidə aparırıq. Yığım bizi qane edəcək səviyyədə olmursa, həmin terminalın yerini dəyişirik. Dediyiniz məsələni isə ətraflı araşdırarıq".

***Məhəmmədəli QƏRİBLİ***

# Bakı "moykaları" - dünyanın qızıl qiymətinə aldığı su amansızlıqla israf edilir...

**İçməli su istənilən dövlət üçün ən qiymətli resurslardan biridir. Bu məsələnin həll olunması energetika, kənd təsərrüfatı, əhalinin yaşayış səviyyəsinin yaxşılaşdırılması və ümumilikdə, ölkənin sanitar sisteminin inkişafı üçün əhəmiyyətli dərəcədə vacibdir. Azərbaycanın su ehtiyatları məhduddur.**



***Eyyub Hüseynov:*** *"Bizdə texniki suyun olmaması üzündən avtoyuma məntəqələri içməli sudan vəhşicəsinə istifadə edirlər"*

***Anar Cəbrayıllı:*** *"Digər ərazilərə texniki suların verilməsi ilə bağlı ayrıca xətlərimiz yoxdur"*

Ölkə üzrə ümumi su ehtiyatları orta hesabla 28,5-30,5 kubkilometr təşkil edir, quraqlıq illərdə bu göstərici 22,5 kubkilometrə qədər azalır. Digər tərəfdən, Azərbaycanın su təchizatı 50-80 faiz xarici mənbələrə bağlıdır. Söhbət bizdə axan bir sıra böyük çayların mənbələrinin digər ölkələrin ərazisində yerləşməsindən gedir.

Birləşmiş Millətlər Təşkilatının tədqiqatına əsasən, gələcəkdə içməli su qıtlığı müşahidə ediləcək ölkələrdən biri də Azərbaycandır. Buna görə də su israfının qarşısını almaq aktual məsələyə çevrilir. Ancaq içməli suyun israf edildiyi yerlərdən biri avtoyuma ("moyka") məntəqələridir. Problem ondadır ki, bu yerlərdə avtomobillər məhz içməli su ilə yuyulur. Həmin məntəqələrdə yüksək təzyiqli aparatların mövcud olduğunu nəzərə alsaq, bu zaman nə qədər böyük həcmdə içməli suyun istifadə edildiyini təsəvvür etmək çətin deyil. Əslində, avtoyuma məntəqələrində texniki sudan istifadə olunmalıdır. Dünyanın bir sıra ölkələrində bu belədir. Bəzi ölkələrdə avtomobillər məişətdə istifadə edilən sularla yuyulur. Hətta israf olmaması üçün su xüsusi çənlərə yığılaraq, yenidən emal edilərək avtomobillərin yuyulması və digər bu kimi məqsədlər üçün istifadə edilir. Bəzi ölkələrdə avtoyuma məntəqələrində içməli sudan istifadəyə görə sahibkarlar sərt cəzalandırılır. Bununla bağlı yüksək cərimələr tətbiq edilir. Reallıq ondan ibarətdir ki, dünyanın bir sıra ölkələri içməli su problemindən əziyyət çəkirlər.

Bütün bunların fonunda, Bakıdakı avtoyuma məntəqələrində içməli sudan istifadə nə dərəcədə doğrudur?

**Məsələyə münasibət bildirən Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynovun sözlərinə görə, içməli sudan bu məqsədlər üçün istifadə edilməsi yolverilməzdir:** "Çox təəssüflər olsun ki, bu gün "moyka"larda avtomobillər içməli su ilə yuyulur. Bizdə texniki suyun olmaması üzündən avtoyuma məntəqələri içməli sudan vəhşicəsinə istifadə edirlər. Hesab edirəm ki, bu böyük mədəniyyətsizlikdir. Digər tərəfdən, Bakıda avtoyuma məntəqələrinin sayı dünyadakı digər şəhərlərlə müqayisədə çoxdur. Mən özüm bir sıra Avropa şəhərlərində olmuşam, orada belə məntəqələrin sayı bizdən xeyli azdır. Həmin yerlərdə suya qənaət üçün elə sistem qurulub ki, avtomobillər tez-tez çirklənmir. Ən başlıcası isə, avtomobillər ancaq texniki sularla yuyulur. Təəssüf ki, hələlik bu bizdə yoxdur. Çünki bizdə texniki su istehsal edilmir. Nəticədə avtoyuma yerləri də içməli sudan istifadə edir. Hansı ki, dəniz suyunu emal edib bu məqsədlər üçün istifadə etmək olar. AİB olaraq bu yöndə səy göstəririk, amma hələlik bir nəticə yoxdur. Baxmayaraq ki, içməli su ilə avtomobillərin yuyulması böyük israfçılığa yol açır. Hesab edirəm ki, avtoyuma yerlərində həm də vergi yüksək olmalıdır. Ən başlıcası isə, texniki suların istehsalına önəm verilməlidir".

**Bizdə nəyə görə texniki suların istehsal edilməməsi ilə bağlı "Azərsu" ASC-nin mətbuat xidmətinin rəhbəri Anar Cəbrayıllı ilə əlaqə saxladıq.** O, qəzetimizə açıqlamasında bildirdi ki, texniki su istehsal olunur, amma bu yalnız "Azəryanacaq" Neft Emalı Zavoduna verilir: "Digər ərazilərə texniki suların verilməsi ilə bağlı ayrıca xətlərimiz yoxdur. Ona görə də avtoyuma məntəqələri şəhərə gedən içməli sudan istifadə edirlər. Ancaq bu məqsədlə tətbiq edilən tariflər əhaliyə tətbiq edilən tariflərdən yüksəkdir. İstifadə edilən bir kubmetr suya görə avtoyuma məntəqələri 2 manat pul ödəyirlər. Hələlik bizdə elə bir plan yoxdur ki, "moykalara" ayrıca texniki su xətti çəkilsin. Haçan olsa, o zaman belə bir layihə həyata keçiriləcək".

***Vidadi ORDAHALLI***

# Ermənistanın Azərbaycana təcavüzü nəticəsində itkin düşmüş soydaşlarımız unudulmayacaq...

**1988-ci ildən başlayaraq Ermənistanın təcavüzünə qarşı döyüşlərdə itkin düşmüş şəxslərlə bağlı Dövlət Komissiyası və Respublika Xatirə Kitabının birgə böyük həcmli və tarixi əhəmiyyətli işinin bir hissəsi yenicə yekunlaşıb. Minlərlə Azərbaycan vətəndaşının itkin düşdüyü ana qədərki həyat yolunu özündə əks etdirən dörd cildlik xüsusi buraxılışın ilk cildi artıq çapdan çıxıb. İlk cilddə 922 nəfər gənc, yaşlı qadın, kişi və uşaqlardan ibarət Azərbaycan vətəndaşı barədə məlumatlar yer alıb. Geniş oxucu marağını nəzərə alaraq, həmin nakam soydaşlarımızın bir neçəsi barədə məlumatı gündəlik olaraq yenidən sıra ilə təqdim etməyi qərara aldıq. Daha ətraflı məlumatı Xatirə Kitabının www.xatirekitabi.az saytından əldə edə bilərsiniz. Beləliklə, sözügedən nəşrdə yer alan itkin soydaşlarımızla bağlı məlumatları diqqətinizə çatdırırıq:**

**(Əvvəli ötən saylarımızda)**

**BABAYEV FƏXRƏDDİN HACI oğlu**



13 fevral 1961-ci ildə Azərbaycan Respublikası Xaçmaz rayonunun Xudat şəhərində doğulmuşdur. Hərbi xidmətə qədər Bakı şəhərinin Binəqədi rayonunda yaşamışdır. Binəqədi RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Babayev Fəxrəddin Hacı oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 8 may 1994-cü ildə Tərtər rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki Babayev Fəxrəddin Hacı oğlu 8 may 1994-cü il tarixində Tərtər rayonunun 3-cü sovxoz adlanan ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür.

Babayev Fəxrəddin Hacı oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**BABAYEV FƏRMAİL İSLAM oğlu**



4 sentyabr 1974-cü ildə Azərbaycan Respublikasının Tovuz rayonunda doğulmuşdur. Hərbi xidmətə qədər Tovuz rayonunun Qovlar qəsəbəsində yaşamışdır. Tovuz RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Babayev Fərmail İslam oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 8 fevral 1993-cü ildə Ağdərə rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Babayev Fərmail İslam oğlu 8 fevral 1993-cü il tarixində Ağdərə rayonu Drombon (indi Heyvalı) kəndi ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür.

Babayev Fərmail İslam oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**BABAYEV FUAD ƏLİHÜSEYN oğlu**



1 dekabr 1973-cü ildə Azərbaycan Respublikasının Ağsu rayonunda doğulmuşdur. Hərbi xidmətə qədər Ağsu rayonunun Qaraqoyunlu kəndində yaşamışdır. Ağsu RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Babayev Fuad Əlihüseyn oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 29 sentyabr 1992-ci ildə Ağdam rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Babayev Fuad Əlihüseyn oğlu 29 sentyabr 1992-ci il tarixində Ağdam rayonunun Sırxavənd kəndi ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür və onun erməni terrorçu-quldur dəstələri tərəfindən əsir götürüldüyü ehtimal olunur.

Babayev Fuad Əlihüseyn oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**BABAYEV HABİL (QABİL) SABİR oğlu**



20 fevral 1970-ci ildə Azərbaycan Respublikasının Bakı şəhərində doğulmuşdur. Hərbi xidmətə qədər Bakı şəhərinin Sabunçu rayonunda yaşamışdır. Sabunçu RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Babayev Habil Sabir oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 31 dekabr 1993-cü ildə Ağdam rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Babayev Habil Sabir oğlu 31 dekabr 1993-cü il tarixində Ağdam rayonunun Güllücə kəndi ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür.

Babayev Habil Sabir oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**(Ardı növbəti sayımızda)**

# Bölgələrimizdə bank kreditləri Bakı ilə müqayisədə çox bahadır...

**Banklar kreditlərin verilməsində paytaxt və region sakinlərinə böyük fərq qoyurlar. Belə ki, eyni tipli kreditin ayrılmasında iki dəfədən çox fəiz fərqi var. Mərkəzi Bankın açıqladığı rəqəmlərdə açıq-aşkar görünür ki, paytaxtda kreditlər təxminən 10-11 faiz civarındadırsa, regionlarda bu rəqəm 23 faizdən artıqdır.**

*"Bakı ilə müqayisədə bölgələrdə əhalinin gəliri eyni deyil"*

***Fuad İbrahimli:** "Regionlar hər zaman banklar üçün risqli ərazi sayılıb"*

Azərbaycanda ən bahalı kreditlər Dağlıq Şirvan iqtisadi rayonunda verilir. Həmin iqtisadi rayonda kreditlər üzrə illik faiz dərəcələri martın sonuna 23,5% təşkil edib. Bu göstəriciyə görə ikinci yerdə Yuxarı Qarabağ iqtisadi rayonu - 23,4%, üçüncü yerdə isə Aran iqtisadi rayonu - 23% qərarlaşıb.

Azərbaycan üzrə kredit qoyuluşunun ölkə üzrə ümumi orta faiz dərəcəsi isə 11,8% olub. Bakı şəhəri üzrə bu rəqəm 10 faiz təşkil edib. Buradan göründüyü kimi, bölgələrə verilən kredit faizləri Bakı və Abşerona nisbətən dəfələrlə çoxdur.

Kreditlərin verilməsində Bakı ilə bölgələr arasında fərqin nə səbəbdən qoyulduğunu öyrənmək üçün ekspertlərə müraciət etdik.

**İqtisadçı-ekspert Fuad İbrahimli "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, regionlar hər zaman banklar üçün risqli ərazi sayılıb:** "Regionlarda kredit faizlərinin paytaxtla müqayisədə daha yüksək faizlə verilməsi bir sıra amillərdən qaynaqlanır. Banklar regionlara kredit verməkdə o qədər də maraqlı deyillər. Çünki burada risq yüksəkliyi var. Eyni zamanda, girovların likvidliyilə bağlı problemlər mövcuddur. Bu amil xüsusən də daşınmaz əmlaka aiddir. Daşınmaz əmlakı girov olaraq götürdükdə ödəniş həyata keçirə, yəni daşınmaz əmlakı likvidləşdirə bilmirlər. Bu baxımdan da banklar regionlarda genişmiqyaslı kreditləşmədə maraqlı deyillər. Nəticədə həmin amil regionlara kredit verilərkən faiz dərəcəsinin artımına səbəb olur. Digər məqam isə odur ki, regionlara verilən kreditlərin əhəmiyyətli hissəsini məhz istehlak kreditləri təşkil edir".




Həmsöhbətimiz onu da vurğuladı ki, bütün ölkədə istehlak kreditləri üzrə faiz dərəcəsi daha yüksəkdir. Bunun özü də regionlar üzrə kreditlərin orta faiz dərəcəsinin yüksək olmasını şərtləndirir.

F.İbrahimlinin dediyinə görə, Bakı ilə müqayisədə bölgələrdə əhalinin gəliri eyni deyil. Banklar da bu kimi amilləri nəzərə alıb, rayonlarda kredit faizini yüksək tətbiq edirlər: "Kredit faizi ölkə üzrə eyni olmalıdır. Bölgələr arasında fərq qoyulmamalıdır. Aidiyyəti qurumlar bu məsələni xüsusi nəzarətə götürməlidirlər".

***Günel CƏLİLOVA***

**Bu gün dünyanın müxtəlif şəhərlərində yeniyetmələrin küçələrdə, meydanlarda, keçidlərdə müxtəlif məhsullar satdığı məlumdur. Onlar bununla ailələrinə maddi dəstək göstərir, ailə qayğılarına dayaq dururlar. Şəhərimizdə də belə yeniyetmələrə rast gəlmək mümkündür. Halal zəhməti ilə çörək qazanan yeniyetmələrə hər birimizin dayaq durmağımız vacibdir.**

# Deputatın vurdurduğu popkornçu yeniyetmənin işinə Təhsil Nazirliyinin operativ reaksiyası - prinsipial aydınlaşma...



Qeyd edək ki, bəzən belə yeniyetmələrə dəstək vermək əvəzinə, onları qınayanlar da olur. Belə bir hal Bakıda da yaşanıb. Məlum olduğu kimi, deputat Rasim Musabəyov "Azneft" meydanındakı yeraltı keçiddə popkorn satan yeniyetmə ilə bağlı sərt fikirlər bildirib və onu həmin ərazidən uzaqlaşdırmağa nail olub. "Bakılıları və şəhərin qonaqlarını sevindirmək üçün dövlətin milyonlarla manat vəsaitinin xərcləndiyi yeraltı keçiddə popkorn satıcısı həyasızcasına yerləşib və yanıq qoxusu ilə bütün ətrafı iyləndirib. İcazəsiz işləyir, dövlətin elektrik enerjisindən pulsuz istifadə edir, vergi ödəmir. Bakılıları zəhərləməmək və bizi qonaqlar qarşısında biabır etməmək üçün kim tədbir görəcək?" - deyə bildirən deputatın bu davranışı ictimaiyyət tərəfindən kəskin qınağa məruz qaldı. Onun bu hərəkəti həm həmkarları, həm də ictimaiyyət tərəfindən qətiyyətlə pisləndi.

Popkorn satan yeniyetmənin keçiddən uzaqlaşdırılması məsələsinə Təhsil Nazirliyi operativ reaksiya verib. Təhsil Nazirliyinin İctimaiyyətlə əlaqələr sektorunun müdiri Cəsarət Valehov mətbuata bildirib ki, artıq məsələ nəzarətə götürülüb: "Bir neçə gündür "Azneft" meydanının yaxınlığındakı keçiddə popkorn satan yeniyetmə ilə bağlı geniş müzakirələr aparılır. Təhsil Nazirliyi rəhbərliyinin tapşırığı ilə həmin gənci tapdıq. Aydınlaşdırdıq ki, Seyfullayev İsrafil Vüqar oğlu 2002-ci ilin noyabrında Biləsuvar rayonunun Günəşli kəndində anadan olub. 17 yaşı var. 2017-ci ildə IX sinfi, icbari təhsil mərhələsini bitirib. Hazırda təhsil almır, Binəqədi rayonunda yaşayır".

Nazirliyin sözçüsü qeyd edib ki, Əmək Məcəlləsi hər bir kəsə 15 yaşından sonra işləmək hüququ verir. "İsrafilin arzusuna uyğun olaraq ona peşə məktəbinə qəbul olunması üçün təklif ediləcək" - deyə bildirən C.Valehovun sözlərinə görə, yeniyetmənin peşə təhsilinə cəlb edilməsi haqqında düşünürlər.

Ekspertlər hesab edirlər ki, Təhsil Nazirliyinin hadisə ilə bağlı verdiyi cəld reaksiya nəticəsində məsələ müsbət mənada həllini tapacaq. **İctimaiyyət tərəfindən nazirliyin təşəbbüsünün yüksək qiymətləndirildiyini deyən tanınmış uşaq yazıçısı Sevinc Nuruqızının sözlərinə görə, Təhsil Nazirliyinin bu addımı başqa qurumlara və aidiyyəti şəxslərə bir nümunədir.** "Deputat tərəfindən işlədiyi yerdən uzaqlaşdırılan yeniyetmənin taleyi hər kəsi narahat edirdi. Heç şübhəsiz ki, o yeniyetmə orada ehtiyac ucundan, bir parça çörək qazanmaq üçün popkorn satırdı. O, pis işlə məşğul olmurdu ki, öz əməyi ilə ailəsinə fayda verirdi. Bu gün Təhsil Nazirliyi tərəfindən həmin yeniyetmə ilə bağlı atılan addımlar ictimaiyyətin narahatlığına son qoydu. Nazirlik bununla sübut etdi ki, nəinki şagirdlərə, hətta şagird olmayan yeniyetməyə də sahib çıxır. Bu, Azərbaycan dövlətinin öz yeniyetməsinə, gələcəyin əsgərinə bəslədiyi müsbət münasibətin təzahürüdür. Nazirliyin həmin yeniyetmənin şəxsiyyətinin müəyyənləşdirilməsi ilə bağlı atdığı addım, onun peşə təhsilinə cəlb edilməsi üçün göstərdiyi təşəbbüs nümunəvi bir hadisədir. Biz yeniyetmələrimizə, uşaqlarımıza sahib çıxmaqla onların sabaha olan ümidlərini, inamlarını daha da artırırıq. O yeniyetmənin peşə təhsili aldıqdan sonra cəmiyyətimizə, ailəsinə yararlı bir insan olcağı heç bir şübhə doğurmur. Hansısa bir deputat onun halal zəhmətini qınaqla qarşılayır, onun fəaliyyətinə mane olur, rəsmi dövlət qurumu isə o yeniyetməni xilas edir. Bu olduqca müsbət bir hadisədir və onun mütləq mənada yaxşı nəticələrinin şahidi olacağıq" - deyə S.Nuruqızı qeyd etdi.

***Sevinc Nuruqızı:*** *"Nazirliyin həmin yeniyetmənin şəxsiyyətinin müəyyənləşdirilməsi ilə bağlı atdığı addım, onun peşə təhsilinə cəlb edilməsi üçün göstərdiyi təşəbbüs nümunəvi bir hadisədir"*

***Fatimə Hacıbəyli:*** *"İnanıram ki, həmin yeniyetmənin problemləri tezliklə həll olunacaq"*



**"Vəfa" Sosial İctimai Birliyinin sədri Fatimə Hacıbəyli də hesab edir ki, Təhsil Nazirliyinin təşəbbüsü, əslində, Azərbaycan dövlətinin iradəsini ortaya qoyur:** "Mən nazirliyin bu humanist addımını alqışlayıram. İnanın ki, bu hər kəsin ürəyindən oldu. İnanıram ki, həmin yeniyetmənin problemləri tezliklə həll olunacaq və o, təhsilini peşəyönümlü məktəblərdən birində davam etdirərək peşə, sənət öyrənəcək. Nazirliyin olaya operativ reaksiyası onu göstərir ki, Azərbaycan dövləti hər bir uşağın, gəncin yaxşı gələcəyi haqqında düşünür".

***İradə SARIYEVA***




# Firavan günlərin həsrətində...

**Azərbaycan inkişaf etdikcə dağlar diyarı Lerik rayonu, əksinə olaraq, tənəzzülə doğru gedir. İndi rayonda sosial problemlərin məngənəsində sıxılan kəndlər çoxdur.**

Sovet rejimi dağılandan sonra xalqa, cəmiyyətə başçılıq edənlərin gözündən-könlündən uzaq düşən Daster ərazisində yaşamaq indi olduqca çətindir. Hər bir vətəndaşının qayğısına qalınan Azərbaycandakı həyat tərzini görəndə Daster, Hamarat, Bradi və Dızidpok kəndlərini əhatə edən bu ərazini, istər-istəməz, ən geridə qalmış bir ölkəyə aid olduğunu düşünmək istəyirsən. Çünki normal həyat yaşamaq üçün burada adi şərait belə yoxdur.

Ərazinin işıq məsələsi bərbad haldadır. Gün olmur ki, burada 4-5 dəfə işıqlar sönməsin. 9 ildən çox idi kəndlərə təbii qazın verilməsi haqqında söhbət gəzirdi. Sən demə bu da yalan imiş. Elə bu yalanın nəticəsidir ki, indi yandırmağa yanacaq tapmaq müşkül məsələyə dönüb. Ərazidən rayon mərkəzinə getmək üçün ictimai nəqliyyatın yoxluğu böyük çətinliklərə səbəb olur. Sahibsizlik üzündən şəhərə düşməyə imkanı olmayan adamlara köhnə ərzaqları üçqat baha qiymətə satmaq adi hal alıb. Ümumiyyətlə, hər dörd kəndin sosial həyatından danışmağa yaxşı heç nə yoxdur.

Dasterlilərin ruzisi əzəldən torpaqdan çıxıb. Sovet vaxtı halal zəhmətləri hesabına özlərinə yaraşıqlı, hər cür şəraiti olan ev tikənlərin sayı bilinmirdi. Bütün bunlar yaxın keçmişdə qaldı. O dövrün təmtəraqlı evlərinin görkəmi indi ürək ağrıdır. Daim deyib-gülən, üzgözündən firavanlıq yağan kənd adamları dərd-sər əlindən girinc olub. Rayon rəhbərlərinin günahı üzündən yaranan çətinliklər, ziddiyyətlər, maddi-mənəvi ehtiyac hər an insanları sınağa çəkir. Halbuki, bu dörd kəndin yaxın keçmişi bu günündən qat-qat işıqlı idi.

Azərbaycan hər cür inkişaf yolunda olsa da, onun kiçik bir parçası olan Daster ərazisi hazırda başdan-başa problemlərin içində boğulur. Odur ki, üzülərək deyirəm, buranın əhalisi sovet vaxtındakı firavan günlərin həsrəti ilə yaşayır...

***Zəfər ORUCOĞLU***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

# Dünya planşetdən kütləvi kitab oxuma kampaniyalarına qayıdır - bəs biz...

**Müasir dünyanın ağıllı adamları, düşünən beyinləri haqlı olaraq deyirlər ki, nə kompüter, nə də digər çağdaş texnoloji vəsitələr kitabın insana qazandırdığı bilik və müsbət vərdişləri əvəz edə bilməz. Sirr deyil ki, son illər internet resurslarının meydana gəlməsi və onların həyatımızın ayrılmaz hissəsinə çevirilməsi kütləvi olaraq insanları kitab oxumaq vərdişlərindən ayırdı.**

Bu proses təkcə bizim cəmiyyətdə deyil, başqa cəmiyyətlərdə də getdi. İnsanların, xüsusən də gənc nəsilin kitabdan uzaq düşməsi ciddi fəsadlara səbəb oldu. Ümumiyyətlə, dünyanın bütün alimləri, bilim adamları, yazıçıları, filosofları həmişə qeyd ediblər ki, kitab oxumaq insanın zehnini inkişaf etdirir, yaddaşını möhkəmlədir, nitqini inkişaf etdirir, söz ehtiyatını zənginləşdirir. Bəlkə də çoxlarımızın yaddaşında baş verən deformasiyalar bizim kitabdan ayrı düşməyimizlə əlaqədardır.

Bu gün dünyada kütləvi oxu mədəniyyətinin təbliğatı tendensiyası yayılıb. Dünyanın müxtəlif ölkələrində kitabın gənc nəsil arasında təbliğ olunması istiqamətində fərqli formalarda aksiyalar, kampaniyalar keçirilir. Bir neçə gün əvvəl qardaş Türkiyənin Antaliya şəhərində də kütləvi oxu aksiyası keçirildi. 15-20 min nəfər məktəbli bu aksiyaya cəlb edildi və onlar dənizin kənarında kitab oxuyurdular. Bu gün dünya ölkələrində düşünən, ağıllı xalqlar artıq internetdən, planşetdən imtina edərək kitab oxumağa üstünlük verirlər. Sözsüz ki, belə kütləvi oxu kampaniyalarının Azərbaycanda da keçirilməsi vacibdir.

**Filologiya üzrə fəlsəfə doktoru, şairə Qiymət Məhərrəmli baki-xeber.com-a bildirdi ki, Azərbaycanda gənclərin kitab oxuma vərdişlərindən uzaq düşməsi ciddi fəsadlar yaradıb.** Q.Məhərrəmlinin sözlərinə görə, gənc nəsilin kitaba qaytarılması üçün yalnız Bakıda deyil, Azərbaycanın ən ucqar rayonlarında belə, davamlı kütləvi kitab oxuma kampaniyaları keçirilməlidir. Müasir dünyanın kitaba qayıtmasının təsirlərinin Azərbaycanda da hiss ediləcəyini deyən Q.Məhərrəmlinin sözlərinə görə, bizdə kitabın təbliğatı üçün bütün imkanlar var, yetər ki, bu işi təşkil edən qurumlar meydana çıxsın. Bunun daha çox ictimai məsələ olduğunu deyən Q.Məhərrəmli hesab edir ki, ölkədə mövcud olan kitab mərkəzləri, mağazaları, çap evləri, qeyri-hökümət təşkilatları, bələdiyyələr, yaradıcı qurumlar Azərbaycanda gənc nəsil arasında kitab oxumaq vərdişlərinin yayılması istiqamətində tədbirlər həyata keçirməlidir:"Bəzən hesab edirlər ki, cəmiyyətdə kitabın təbliğatı, gənc nəsildə oxu mədəniyyətinin formalaşdırılması məsələsi aidiyyatı dövlət qurumlarının işidir. Mən isə belə düşünmürəm. Bu gün Azərbaycanda kifayət qədər ictimai təşkilatlar var ki, həmin təşkilatlar gənclərin kitaba, oxuya qaytarılması üçün ciddi təbliğat işləri həyata keçirməlidir. Dövlət öz üzərinə düşən işi görür. Bəs bu istiqamətdə ictimai qurumlar, kitab evləri, nəşr mərkəzələri nə iş görürlər? Hesab edirəm ki, Azərbaycandakı kitab evləri, nəşriyyatlar, QHT-lər, mədəniyyətlə əlaqədar qurumlar gənclərdə kitab oxuma mədəniyyətinin formalaşdırılması üçün kütləvi kitab oxuma aksiyaları keçirməlidir. Bunun üçün bizdə hər cür şərait var. Bakı Bulvarında, eləcə də parklarda bu cür aksiyalar təşkil etmək mümkündür. Azərbaycanın digər rayon və şəhərlərində də kütləvi oxu kampaniyaları keçirmək üçün şərait var. Həmin yerlərdə də böyük parklar, meydanlar var. İnternetin gənclərimizi oxudan uzaqlaşdırdığı faktdır. Bu gün biz gənclərimizi kitaba qaytara bilməsək daha da ciddi problemlərlə mənəvi problemlərlə üzləşə bilərik. Azərbaycan ədəbiyyatı çox zəngindir və gənclərin ədəbiyyatımızla tanış olması çox vacibdir. Eləcə də bizdə dünya ədəbiyyatının çox görkəmli yazıçı və şairlərinin əsərləri tərcümə edilib, həmin əsərlərlə də gəncliyimiz yaxından tanış olmaldır"-deyə Q.Məhərrəmli bildirdi.



*Qiymət Məhərrəmli: "Azərbaycandakı kitab evləri, nəşriyyatlar, QHT-lər, mədəniyyətlə əlaqədar qurumlar gənclərdə kitab oxuma mədəniyyətinin formalaşdırılması üçün kütləvi kitab oxuma aksiyaları keçirməlidir"*

*Aydın Xan Əbilov: "Azərbaycanda da kütləvi kitab oxuma kampaniyaları keçirilməsi ənənəsi var və hər il Heydər Əliyev Fondu mütaliə, oxu günləri keçirir"*

Q.Məhərrəmli qeyd etdi ki, kitab cəmiyyətin, şəxsiyyətin formalaşmasında, mədəniyyətin inkişafında mühüm rola malikdir və kitabların insanlara verdiyi töhfələr internetin verdiklərindən çox üstündür üstündür. O, həmçinin hesab edir ki, kitab oxuma insanlar arasında əlaqəni gücləndirir, onların nitq qabiliyyətini formalaşdırır,

Onun sözlərinə görə, dünyanın bir çox mütəxəssisləri bildirir ki, kitab oxumaq yaddaşı qüvvətləndirir və Alzhemier risqini azaldır. "Kitabın faydaları həddindən artıq çoxdur. Hesab edirəm ki, əgər Azərbaycanda kütləvi oxu kampaniyaları başlasa və bu vacib istiqamət gənclər arasında təbliğ edilsə Azərbaycan gəncliyi də internet resurslarından, kompüterdən, planşetdən, mobil telefondan uzaqlaşıb kitaba üz tutacaqlar. Bundan isə xalq olaraq biz qazanacağıq. Bu gün gənclərin çoxu planşetdən, kompüterdən istifadə etdiyi üçün kitaba əhəmiyyət vermək istəmir. Ancaq gənclər görəcək ki, tez-tez parklarda, bulvarda, meydanlarda kitab oxuma aksiyaları keçirilir, kitab təbliğ olunur onlar da kitab oxumağa meyl göstərəcəklər"-deyə o, qeyd etdi.

**Yeni Yazarlar və Sənətçilər qurumunun rəhbəri, yazıçı - kultroloq Aydın Xan Əbilov bizimlə söhbətində bildirdi ki, son dövrlər meydana çıxan yeni texnologiyalar müxtəlif sahələrlə bərabər mütailəyə, yazı mədəniyyətinə, virtual oxu mədəniyyətinə, eyni zamanda da kitaba, mətnə də təsir edib.** "Nə qədər acı səslənsə də XXI əsr mənt, yazı əsri deyil, daha çox vizual, virtual, səsli mətnlərin, filmlərin, seriallların, televiziya proqramlarının, internet proqramlarının və saytların əsridir. Ona görə də get-gedə kitab, çap nümunələri sıradan çıxır və çıxacaq da. İlkin araşdırmalara görə, biz gözləyirdik son 5 ildə elektronlaşma o qədər güclü olacaq ki, kağız, mətn daşıyıcıları ümumiyyətlə sıradan çıxacaq. Burada söhbət onların janrından, mövzusundan deyil, formatdan gedir. Ona görə də, bir çox ölkələr paralel olaraq həm çapa, həm də elektron, onlayn kitablara üstünlük verir. Müxtəlif ölkələrdə kütləvi oxu, mütailə günləri keçirilir. Azərbaycanda da tez-tez oxu mədəniyyətinin yayılması, təbliği ilə bağlı mütailə günləri keçirilir. Azərbaycanda da kütləvi kitab oxuma kampaniyaları keçirilməsi ənənəsi var və hər il Heydər Əliyev Fondu mütaliə, oxu günləri keçirir. Bizim Yeni Yazarlar və Sənətçilər qurumu da bu istiqamətdə tədbirlər keçirir. Azərbaycan Yazıçılar Birliyi də tez-tez kitab oxuma ilə bağlı tədbirlər təşkil edir. Milli Kitabxanada da, müxtəlif ali məktəblərdə, o cümlədən də rayonlarda da kitab bayramlarının, sərgilərinin təşkil edilməsinin şahidi oluruq. Ancaq əlbəttə, insanları məcbur edə bilmərik ki, onlar çap kitabı oxusunlar. Bilirik ki, kağız kitabların da tirajı çox azdır və bu bütövlükdə Azərbaycan oxucusuna çatmır. 300-500 tirajla çap olunan kitabları hər kəs oxuya bilmir. Ona görə də, kitabın elektron variantında da oxunmasının tərəfdarıyıq"-deyə A.X.Əbilov qeyd etdi.

Onun fikrincə, əsas o deyil ki, gənc nəsil ya kağız kitabdan, ya da elektron kitabdan istifadə edir, əsas odur onların oxuya marağı artsın. Əsas hədəfimiz bilik qazanmaq, intellektual səviyyəmizi artırmaq üçün davamlı mütaliyə etməli olduğumuzu deyən A.X.Əbilovun bildirdiyinə görə, kitabı gənclərə sevdirmək üçün daha çox təbliğat aparmalıyıq. O, inanır ki, tezliklə Azərbaycan insanının, gəncliyinin kitaba üqz tutduğunun şahidi olacağıq. Ekspert onu da bildirdi ki, ölkəmizdə davamlı olaraq kitab bayramlarının keçirilməsinin, yazıçı və şairlərlə görüşlərin təşkil edilməsinin də gənclərin oxuya qayıdışına təkan verəcəyi sirr deyil.

***İradə SARIYEVA***

# Telekanallarımızda surdo-tərcümə niyə yoxdur...



**Nitq və eşitmə qüsurlu insanlar cəmiyyətin həssas təbəqəsinə mənsubdurlar. Onların öz fikirlərini ətrafa çatdırması, yaxud ətrafdakıların düşüncələri ilə tanışlıq, fikir mübadiləsi aparmaq sahəsində xeyli dərəcədə çətinlikləri var. Bu qəbildən olan insanlar çox şey bilmək istəyir, normal insanlar kimi dünyada baş verən yenilikləri öyrənməyə can atırlar. Bu da təbii haldır.**

Televiziyalarda mövcud olan problemlərdən danışarkən gündəmə gətirilən çatışmazlıqlardan biri də eşitmə və danışma qabiliyyəti olmayan insanlar üçün surdo-tərcümələrin (jest dili) olmamasıdır. Azərbaycan telekanallarında lal və karlar üçün informasiya verilməməsi həmin təbəqəni məlumat blokadasında yaşamağa məhkum edir. Halbuki, MDB və dünya ölkələrinin çoxunda telekanallar gündə ən azı bir dəfə xəbərlər proqramında surdo-tərcüməçilərdən istifadə edirlər. Amma bizdə fiziki qüsuru olan insanlar informasiya əldə etmək üçün öz yaxın adamlarının köməyinə arxalanırlar.

Fiziki qüsurlu insanların da informasiya almaq haqqı var. Surdotərcüməçilər mimika və jestlər vasitəsilə kar və lalları başa salır, onların zəruri məlumatları əldə etməsinə şərait yaradırlar. Hətta bəzi mütəxəssislərin fikrincə, surdo-tərcümə xəbərlərlə yanaşı, tok-şou xarakterli verilişlərdə də mütləq olmalıdır. Qardaş Türkiyə ilə yanaşı, qonşu Rusiya telekanallarında da surdo-tərcümə geniş yayılıb. Əlbəttə, bu cür tərcümənin efirdə gedən bütün verilişləri əhatə etməsi bəlkə də mümkünsüzdür. Amma xəbərlərdə və tok-şou xarakterli verilişlərdə mütləq olmalıdır. Məlumdur ki, bütün televiziyalara filmlərin çəkilməsi üçün dövlət büdcəsindən pul ayrılır. Əgər telekanallar istəyərsə, serialların içərisində lal və kar şəxslər üçün tərcümələr tətbiq edə bilərlər. Ekspertlərə görə, subtitrlər, məhdud alt yazılar surdotərcüməni tam əvəz edə bilməz. Hansısa xəbərdə bir cümləlik subtitr verməklə bütöv xəbəri anlatmaq mümkün deyil. Ona görə də Rusiya və Türkiyə televiziyalarında subtitrlərdən istifadə olunsa da, surdo-tərcümələr də qalmaqdadır. Təəssüflər olsun ki, əksər kanallar maliyyə məsələsində simiclik edirlər. Əlavə vəsait tələb olunduğuna görə surdotərcüməçi tutmurlar. Anlamırlar ki, televiziya kanalları biznes fəaliyyəti ilə yanaşı, həm də sosial məsuliyyət daşıyırlar. Bunu nəzərə alıb, əsas verilişlərdə surdo-tərcüməçi tutmalıdırlar. Hazırda surdotərcüməçilər azdır, çünki onların işinə tələbat yoxdur, əgər tələbat artarsa, tərcüməçilərin də sayı çoxalar. Aydındır ki, qanunvericilik baxımından teleməkanların surdotərcümələrə yer verməməsi heç də hüquq pozuntusu deyil. Amma mənəvi prizmadan yanaşanda, bu, televiziyaların lal-karların qarşısında mənəvi məsuliyyətinin pozulmasıdır.



***Mayis Əliyev:** "Eşitmə və danışma qabiliyyəti olmayan insanların telekanalların hazırladığı informasiya proqramlarında nəzərə alınmaması..."*

***Qiymət Məhərrəmli:** "Həm xəbərlər proqramında, həm də telekanallarda yayımlanan verilişlərdə səslənən fikirlər surdo-tərcüməçi vasitəsilə fiziki qüsurlu insanlara çatdırılmalıdır"*

Qeyd edək ki, Əlillərin hüquqları haqqında Konvensiyada qeyd olunub ki, onların digərləri ilə bərabər səviyyədə informasiya-kommunikasiya texnologiyalarından yararlanmaq hüququ var. Konvensiyaya qoşulan dövlətlər, o cümlədən, Azərbaycanda görmə-eşitmə və nitq qabiliyyəti zəif olan şəxslər üçün müxtəlif növ tərcümə xidmətləri təmin edilməlidir. Həmin təbəqənin informasiyadan istifadə imkanını təmin etmək üçün onlara kömək və dəstək göstərilməsinin digər lazımi formalarını inkişaf etdirmək vacibdir. Bura, həmçinin, eşitmə və danışma qüsuru olan insanlar üçün surdotərcümələr də daxildir. Bununla təkcə televiziyalar yox, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi də məşğul olmalıdır. Telekanallar ayrıca ştat açmamaq üçün, əlavə maaş məsələsinə görə surdotərcüməni ləğv edə bilərlər. Amma nəzərə almaq lazımdır ki, televiziyalara eşitmə və danışma qüsuru olan insanlar da baxırlar. Surdo-tərcümənin olmaması onların tamaşaçı hüququnun pozulması deməkdir.

Onu da bildirək ki, bu sahədə mütəxəssis sarıdan problem ola bilməz. Çünki pedaqoji təmayüllü ali məktəblərdə müvafiq ixtisaslar var. Kadr da kifayət qədərdir, çünki son illər açılan uşaq-inkişaf mərkəzlərində məhz həmin kadrlar çalışır. Bu, telekanallar üçün əlavə yük ola bilər, amma aidiyyəti qurumlar surdo-tərcümələrlə bağlı mütləq hər hansı addımlar atmalıdırlar.

**Sosial Hüquqların Araşdırılması İctimai Birliyinin sədri Mayis Əliyev bizimlə söhbətində qeyd etdi ki, eşitmə və danışma qabiliyyəti olmayan insanların telekanalların hazırladığı informasiya proqramlarında nəzərə alınmaması bu qrup əlillərin cəmiyyətə inteqrasiyası baxımından ciddi problemdir:** "Televiziyalar ən çox baxılan media vasitəsidir. Demək olar ki, insanların əksəriyyəti ölkə və dünya gündəmində baş verən hadisələr haqqında informasiyanı televiziya kanallarının hazırladıqları xəbərlər proqramlarına baxaraq əldə edirlər. Ona görə də eşitmə və danışma qabiliyyəti olmayan insanların xüsusilə də televiziya kanallarında yayımlanan verilişlərdə nəzərə alınması çox önəmlidir. Təbii ki, bütün verilişlərdə bunu etmək çox çətin məsələdir. Amma, ən azından, informasiya proqramlarında surdo-tərcümədən istifadə edilməsi vacibdir".

Həmsöhbətimiz onu da vurğuladı ki, subtitrlər eşitmə və danışma qabiliyyəti olmayan şəxslərin xəbərləri başa düşməsinə yardımçı olur. Amma subtitrlər sürətli verilir ki, onu oxuyub çatdırmaq çox vaxt mümkün olmur. Subtitrləri oxumaqla xəbərləri başa düşmək olmur. Çünki subtitrlər əksər hallarda başlıq formasında təqdim olunur.

**Filologiya üzrə fəlsəfə doktoru Qiymət Məhərrəmli qeyd etdi ki, işarət dilinin özü bir elmdir. Nitqi olmayan və eşitmədən məhrum olan insanlar normal insanlara nisbətən daha həssas olurlar. Bu baxımdan onlara xüsusi münasibət göstərilməlidir. Bütün dünyada bu cür insanlar mədəni, sosial layihələrə cəlb edilir, televiziya proqramlarına qatılırlar: "Nitq və eşitmə qüsurlu insanların həyata baxışını formalaşdırmaq üçün onların tələbatını, zövqünü ödəyən layihələrin həyata keçirilməsi arzuediləndir. Görmə qüsurlu, danışma və eşitmə əngəlli insanlar daha həssas olduqları üçün, onlara yanaşma fərqli olmalıdır. Bu qəbildən olan şəxslər də informasiya ilə təmin olunmalıdırlar. Həm xəbərlər proqramında, həm də telekanallarda yayımlanan verilişlərdə səslənən fikirlər surdo-tərcüməçi vasitəsilə fiziki qüsurlu insanlara çatdırılmalıdır".**

*Günel CƏLİLOVA*

№ 84 (3982) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

11-13 MAY 2019-cu il

www.baki-xeber.com

# Dünya okeanının yarısı kosmos mənşəlidir?

**Su planetimizin təxminən dörddəüçünü təşkil edir, lakin alimlər indiyədək onun mənşəyini və nədən bu qədər çox olduğunu dəqiq söyləyə bilmirlər.**

"AZƏRTAC" bildirir ki, irəli sürülən ehtimallardan biri Yerin formalaşdığı və çox gənc planet olduğu mərhələdə su ilə zəngin olan mineralların okeanları əmələ gətirməsidir. Digər fərziyyə isə ondan ibarətdir ki, okeanın müəyyən hissəsində suyun mənşəyi planetimizə gəlmiş kometalar və asteroidlərdir. Arizona Universitetinin kimyaçı alimlərinin tədqiqatları ikinci ehtimalın doğru olduğunu təsdiq edir. Onlar İtokava daş asteroidinin süxurlarında çoxlu su aşkar ediblər. Bu göy cismi son zamanlaradək tamamilə "quru" hesab olunurdu. Alimlərin hesablamalarına görə, planetimizin mövcud olduğu milyardlara il ərzində İtokava kimi asteroidlər Yer kürəsinə Dünya okeanının su ehtiyatlarının yarısını gətirə bilərdi. Beləliklə, dəqiq desək, planetimizdə 700



milyard meqaton, yaxud 1,4 sekstillion (sekstillionun yazılışında 1 rəqəmindən sonra 21 sıfır var) su mövcuddur. "Yer kürəsi kosmosun mavi nöqtəsində yerləşir və burada çoxlu su ehtiyatları və üzvi birləşmələr var. Məhz onların sayəsində həyat mövcuddur. Başqa bu cür planet elmə məlum deyil. Bizim əsas vəzifəmiz bunun necə baş verdiyini aydınlaşdırmaqdır", - deyə Arizona Universitetinin professoru Metraye Boz vurğulayıb. Hələ ki, İtokava tərkibinin öyrənildiyi ilk və yeganə asteroiddir. Lakin asteroidlər, kometalar və digər göy cisimlərinin Dünya okeanının yaranmasında böyük töhfələrinin olmasını iddia etmək üçün bu tədqiqat kifayət edir. Tədqiqatın iştirakçılarından biri Tszin Tszilyan deyir: "Biz tədqiq etdiyimiz nümunələrdə Günəş sistemi hüdudlarında olan göy cisimlərindən də çox su olduğunu müəyyən etdik". 2005-ci ildə "Hayabusa-1" yapon kosmik zondu Günəş sistemimizin yarandığı vaxt meydana gəldiyi ehtimal olunan İtokava asteroidinin orbitində üç həftə qalıb. Sonra aparat onun səthinə enib və süxurların nümunəsini götürərək 2010-cu ildə Yerə çatdırıb. Tədqiqatlar zamanı məlum olub ki, asteroidin süxurlarının tərkibində minerallar, çoxlu silisium var. Alimlər hesab edirlər ki, İtokava başqa göy cismi ilə toqquşma nəticəsində parçalanaraq daha böyük obyektdən ayrılıb. İndi kosmosda olan ikinci yapon zondu digər asteroidin - Ryuqanın səthinə enib. Oradan götürüləcək süxurlar da Yerə çatdırılacaq.

## Elan

Piriyev Şakir İsrayil oğlunun adına verilmiş Əfqanıstan Müharibə Veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Novruzov Rəhbər Rəşid oğlunun adına Bakı şəhəri Xəzər rayonu (keçmiş Əzizbəyov) Qala qəsəbəsi 3 saylı Zeytun savxozunda yerləşən ev 35 ünvanının qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Hüseynova Fəridə Məmməd qızının adına Abşeron rayonu Saray qəsəbəsi Kiçik qəsəbə ev 48 ünvanının çıxarışı itdiyi üçün etibarsız sayılır.

Kazımova Həmidə Zakir qızının adına Bakı Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Bakı şəhər Xəzər rayonu, Çöl Şüvəlan bağ massivində yerləşən, sahəsi 0.12 ha olan 48 Z nömrəli bağ sahəsinin icarəyə verilməsinə dair Bağlar Təsərrüfatının İnkişafı və İstismar Birliyi ilə Fərzəliyeva Fatma Zülal qızı arasında bağlanmış 26 sentyabr 2002-ci il tarixli, 31093 saylı müqavilə itdiyi üçün etibarsız sayılır.

Bakı şəhəri, Nizami rayonu, B.Nuriyev (Darvin) küçəsi, 2383-cü məhəllə ünvanında yerləşən 209,5 kv.m. qeyri-yaşayış sahəsi üzərində Əmirov Bəxtiyar Bahəddin oğlunun təsis etdiyi "Təbriz" firmasının hüquqlarını təsdiq edən, Azərbaycan Respublikasının Dövlət Əmlakının İdarə Edilməsi üzrə Dövlət Komitəsi tərəfindən 21.01.2008-cı il tarixdə bu obyekt üzərində hüquqların qanunvericiliklə müəyyən edilmiş qaydada daşınmaz əmlakın dövlət reyestrində dövlət qeydiyyatına alınması məqsədilə verilmiş №000687 saylı şəhadətnamə itdiyi üçün etibarsız sayılır.



## Xorvatiya sahillərində eramızdan əvvəl I əsrə aid gəmi tapıldı...

**Xorvatiya sahillərində Molat adasının yaxınlığında eramızdan əvvəl I əsrə aid gəmi aşkar olunub.**

"AZƏRTAC" bildirir ki, belə gəmilər Qədim Roma varlılarının xoşladığı Adriatik dəniz sahillərində villaların inşasında tikinti materiallarının daşınması üçün istifadə olunurdu. Arxeoloqların fikrincə gəminin yükünü araşdıraraq qədim dövrlərdə inşa olunan villalar barədə təsəvvür yaranacaq.




**Qoç** - Boş söhbətlər, mübahisələr və müzakirələrə vaxt ayırmayın. Əks təqdirdə, münasibətlərin aydınlaşdırılması gərginləşəcək, münaqişə yaranacaq. Daha maraqlı və perspektiv fəaliyyətə hazırlaşın.


**Buğa** - Doğrulmayan ümidlər, puç olan xülyalara görə dərindən təəssüflənməyin. Yaxın ətrafınızdakı insanlardan birinin fəaliyyəti və ya danışıqları "sürpriz"lər vəd edir. Çalışqan, qətiyyətli, inadkar olun.


**Əkizlər** - Kollektiv iş və ya istirahətlə bağlı situasiyalar xüsusi diqqət tələb edir. Başqalarını təəccübləndirəcək əmələ yol verməyin. İndiyədək yaxşı tanıdığınız düşündüyünüz insan hərəkəti ilə sizi heyrətləndirə bilər.


**Xərçəng** - Sakitlik, istirahət və əyləncə günü deyil. Dəyişikliklərə dərhal reaksiya verin. Cari situasiyalara münasibətinizi dərhal dəyişin. Qıvraq, çevik, cəld olun. Yaxşı reaksiya və problemləri anlamağınız gərəkdir.


**Şir** - Rəqiblərin zərbələrini, dostlarla tərəfdaşların naqolay fəaliyyətinin yarada biləcəyi problemləri dəf etməyi bacarın. Təmaslar nə qədər çox olarsa, bir o qədər çox sinirlənəcəksiniz.


**Qız** - Sürətli, aktiv, enerjili həllər tələb edən gündür. Belə həllər yaşam, işlər, fəaliyyət və tapşırıqlarda ciddi dəyişikliklərə səbəb ola bilər. Narazılıq yaranan müstəvidə dəyişikliklər edin.


**Tərəzi** - Planlardakı gözlənilməz dəyişiklikləri labüd qəbul edin. Xəbərlər yenilənir, yanınızdakı adamlar arasında emosional davrananlar tapılır. Hər şeyin plan üzrə getməsinə can atmayın.


**Əqrəb** - Çətin və ağır gündür. Səhhətinizi qoruyun, həddən ziyadə çalışmayın. Yollarda ehtiyatlı olun. Təxminlənməmiş situasiyalar, ətrafınızdakı insanların davranışlarında qəfil yeniliklər olacaq.


**Oxatan** - İşlərə yaradıcı yanaşma, sürətli və virtuoz davranış tələb olunur. Yerdəyişmələri bir qədər məhdudlaşdırın. Ətrafınızdakı insanlarla münasibətlərdə gərginlik müşahidə oluna bilər.


**Oğlaq** - Yaşamınızda qəfil hadisələrə hazır olun. Uzaqdan gələcək xəbər planlarınızda qəfil dəyişikliklərə səbəb ola bilər. Onların nəzərinə çatdırın ki, münasibətlərin aydınlaşdırılması təxirə salınır.


**Dolça** - Yaxın ətrafınızdakı insanlarla təmasların həddən ziyadə olmasından usana bilərsiniz. Tək qalmaq, müstəqil şəkildə işləmək istəyirsiniz. Planlar dəyişəcək, yaşamınıza daxil olan informasiyanın həcmi isə artacaq.


**Balıqlar** - Fiziki tonusunuz və şəxsi təhlükəsizliyinizin təminatı ilə məşğul olun. Həyat sizə problemlər və əvvəl yol verdiyiniz səhvlərinin bəzilərinin təkrarını hazırlayır. Səliqəli olun, reaksiyalarınızda tələskənliyə yol verməyin.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Alimlər Yerin mərkəzində qara dəlik olduğunu iddia edir

**NASA-nın keçmiş əməkdaşı, riyaziyyatçı, geofizik və astronom Edmond Qrin əminliklə iddia edir ki, planetimizin ortasında əsl qara dəlik var.**

"Ölkə.az" bildirir ki, iddiaya əsasən, Yerin nüvəsinin yüksək tempraturu da məhz bu səbəbdəndir. Onun bu teoriyasını NASA-nın keçmiş əməkdaşı Luiza Riofrio da dəstəkləyib. Astrofizikin fikrinə əsasən, planetimizin mərkəzindəki qara dəliyin ölçüsü böyük olmasa da, kütləsi Ayın kütləsi ilə müqayisə edilə bilər. Bu isə milyardlarla il əvvəl Yerin yaranmasına səbəb olub. Riofrionun hipotezinə inansaq, qara dəlik kiçik ölçüdə olduğu üçün planetimizi dağıda bilmir. Amma onun enerjisi yerin materiyası ilə daim qarşılıqlı əlaqədə olduğu üçün nüvəni isidir. Beləcə, qara dəlik zəlzələ və vulkanlara səbəb olur. Bundan başqa, qara dəlik Yerin maqnit sahəsinə təsir edir. Luiza məsələ ilə bağlı yazıb: "Bəşəriyyət qara dəlikdən qorxmamalıdır. Bizim planetimiz qara dəlik olmasa, mövcud ola bilməz. əminəm ki, yaxın gələcəkdə qara dəlik insanlar üçün güclü enerji mənbəyinə çevriləcək".

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.